

# Azərbaycanda minimum aylıq əməkhaqqı artırıldı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. "Unikal" xəbər verir ki, Sərəncama əsasən, Azərbaycanda minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən...*

Səh.2


# UNİKAL

№01 (2135) 6 yanvar 2023-cü il

Qiymәti 50 qәpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




# Zakir Qaralovu gözləyən böyük təhlükə

## Keçmiş baş prokurorun müəmmalı susqunluğunun sirri nədir?

*Ötən ilin son günlərinə damğa vuran çıxışlardan biri Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Zahid Orucdan gəldi. O, "Uzun müddətli və ardıcıl mübarizədən sonra "Tərtər işi" nəhayət, obyektiv həllini tapdı" deyərək Baş prokurorluğun qərarı ilə Ermənistana casusluq adı ilə məhkum edilən 19 şəxsə bəraət verilməsini ədalətin qələbəsi adlandırdı. "Yalnız cənab Prezidentin məsələyə müdaxiləsi və yeni İstintaq Komissiyası yaratmasından sonra 2 ay ərzində ləyaqətli müstəntiqlər yüzlərlə şəxsi dindirərək, kənar təzyiqlərə və təxribatlara baxmayaraq, 288 zərərçəkən şəxsin işini...*

Səh.8



Səh.9

# Yeni bahalaşma dalğası gözlənilir

## "Bizim təhsilimiz sağlamlaşdırılmalıdır"



*Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, deputat Musa Qasımlı "Unikal"a müsahibə verib. O, bu il ölkəmizdə gözlənilən dəyişikliklərdən, Xankəndi-Laçın yolunda keçirilən aksiyalardan, İran-Azərbaycan münasibətlərindən və s.*

Səh.4

## Azərbaycanda yenidən devalvasiya ola bilərmi?



*"2023-ci ildə manatın məzənnəsinin necə dəyişəcəyi son günlər ən çox ünvanlanan suallardandır. Mərkəzi Bank milli valyutanın məzənnəsinə təhdidlərin olmadığını bəyan edib. Bununla yanaşı, il ərzində qlobal proseslərə, xüsusən də regional dəyişikliklərə reaksiya veriləcəyi də istisna edilmir.".*

Səh.5

## Azərbaycanın dünyaya inteqrasiyası sürətlənib



*Azərbaycanın günü-gündən güclənməsi, qüdrətli dövlətə çevrilməsi onun regionda siyasi çəkisini də artırır. Artıq dünya Azərbaycan dövləti ilə hesablaşır, regionda sözün əsl mənasında söz sahibinə çevrilir. Azərbaycanın digər dövlətlərə qarşı yürütdüyü siyasət Azərbaycanın maraqlarına...*

Səh.11

# "Məni bir günlük maliyyə naziri qoysalar..." - Aygün Kazımova



***"Nə edirsiniz pulu, onun altından çıxmaq var. Bir saniyənin içində pulu yox edərəm. Məni bir günlük maliyyə naziri qoysalar, bir günə ölkəni çökdürərəm. Bu qabiliyyət məndə var, heç kim bacarmaz".***

Bu sözləri Xalq artisti Aygün Kazımova "Zaurla Günaydın" proqramında deyib. Müğənni layihələrinə xərclədiyi pullardan danışıb: "Min konsert edərəm. Kosmosdan adam gətirərəm. Özümdən başqa nə varsa, hər şeyi layihələrə qoyuram. Ziyanlı şeyə pul xərcləmərəm. Məsələn, pencək almalıyam, gedirəm, ondan başqa nə istəyirsiniz alıram. Deyirəm, lazım olacaq".

Kazımova səhnə geyimlərinin aqibətindən bəhs edib: "Bir paltarı iki dəfə geyinə bilmirəm. Peşəmin tələbləri var. Geyimlərin hamısını özümdə saxlayıram. Dizaynerlər bəzən dəyişirlər, yenidən istifadə edirəm".

# "Belə kişi kimə lazımdır ki?"



***"15 yaşımdan toylara getmişəm. Vaxt olub ki, 3 mağazam olub. Hər şeyi özüm üçün təkbaşına etmişəm. Su gələn arxa bir də gələr. Allah yıxılmağa qoymayıb. Ondan çox razıyam. Verən də Alllahdır, alan da Allah. Şükürlər olsun bu günümüzə"***

"Unikal" xəbər verir ki, bunu moderator.az-a açıqlamasında tanınmış müğənni Mənzurə Musayeva deyib.

"Gənc nəsil özünü reklam etməyi, sosial şəbəkələrdə paylaşmağı bacarır. Biz bir az bundan geri qalmışıq. İnstaqram səhifəmi işlədirlər, heç özüm işlədə bilmirəm. Ara-sıra baxıram, yazılan mesajlarla maraqlanıram. İstəsəydim öyrənərdim, amma buna həvəsim və vaxtım yoxdur. Sənət adamı heç vaxt pis insan ola bilməz. Onun gözəl ürəyi olmasa gözəl mahnılar ifa edib, xalqa sevdirə bilməz. Mən heç vaxt sənətçinin pis tərəfini görmürəm. Bəlkə də var, amma ona da gözəl gözlə baxmışam" deyə müğənni bildirib.

Mənzurə Musayeva bildirib ki, ailədə hörmət qarşılıqlı olmalıdır. "Kişi xanımına qarşı məsuliyyətli olub, onun qulluğunda dayanmalıdır. Elə bəylərimiz var ki, özləri qulluq istəyir. Təbii ki, xanım da kişiyə diqqət göstərməlidir. Bu hörmət və diqqət yarıbayarı olmalıdır. Xanımı diqqətsiz qoyan kişi kimə lazımdır ki? Hər bir qadının xoşbəxt olmağa haqqı var. Amma həyatımdakı bəzi xoşbəxtlikləri qaçırmışam. Xoşbəxtlik bir andır, hər zaman sənin həyatında olmur" deyə müğənni bildirib.



# "Ayseli o qədər döymüşəm ki..." - Rəqqasə Fatimə

***Rəqqasə Fatimə Fətəliyeva müğənni Aysel Əlizadə ilə bağlı etiraf edib.***

Sənətçi "Zaurla Günaydın" verilişində uşaq vaxtı bir məhlədə yaşadıqlarını deyib. Fatimə bildirib ki, Ayseli uşaq vaxtı döyüb: "Onun valideynlərinin toyunda iştirak etmişəm, anasının güzgüsünü mən tutmuşdum. Ayseli uşaqlıqda o qədər döymüşəm ki...".

# "Geyimlərimi kasıb qohumlarıma verirəm" - Zamiq

***Müğənni Zamiq Hüseynov "Xəzər axşamı" proqramına qonaq olub.***



"Unikal" xəbər verir ki, o, verilişdə istifadə etdiyi geyimlərindən danışıb. Zamiq bildirib ki, paltarları geyindikdən sonra imkansız qohumlarına verir: "Qohumlar arasında çox kasıb insanlar var. Hər üç, dörd aydan bir geyimlərimi onlara verirəm. İllərdir ki, geyimlərimi qohumlarıma verirəm. Hansı qohumum mənimlə eyni ölçüdədirsə, ayaqqabılarımı, pencəklərimi və sairə əşyalarımı bağışlayıram".

Müğənninin bu açıqlaması müzakirələrə səbəb olub.

# "Ondan yox, özümdən gözləntim var" - Günay İbrahimli



***"Zaman insan təxəyyülünün məhsuludur. Mənim illərdən gözləntim yoxdur. Özümdən gözləntim var. Çalışın hər zaman özünüzdən gözləntiləriniz olsun. Öz limitlərinizi aşmağa çalışın".***

Bu sözləri müğənni Günay İbrahimli sosial şəbəkə hesabında yazıb.

Sənətçi daha sonra "Beyninizdə ayaq dəyməmiş yerlərə addım atın. Qorxularınıza qalib gəlin. Fiziologiyamızda ən üst hissədə dayanmış, çəkisi 2 kiloqrama yaxın olan bir orqan var. Onun dilini öyrənməklə, istədiyiniz hər bir nöqtəyə çatmaq mümkündür. 2023-cü il sizin dəyişim iliniz olsun. Mənim də çoxlu məqsədlərim, arzularım, planlarım var. Gerçəkləşməsi ümidi ilə... Dəyişmək gözəldir" sözlərini əlavə edib.

# Baş nazirdən Qarabağ və Şərqi Zəngəzurla bağlı yeni qərar



***Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin siyahısı dəyişib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərara əsasən, Aqrar Sığorta Fondunun - 12-9/ kodu bu siyahıya əlavə edilib. Həmçinin, Xidmətlər bölməsi də Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin siyahısına daxil edilib:

- 17-1/ Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti
- 17-2/ Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti.

Bu Qərar 2023-cü il yanvarın 1-dən qüvvəyə minib.

# Rövşən Binnətli televiziya direktoru oldu

***Tanınmış teleaparıcı Rövşən Binnətli İdman TV-də direktor vəzifəsinə təyin olunub.***

Bununla bağlı "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov əmr imzalayıb.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətindən Modern.az-a məlumatı təsdiqləyiblər.

Qeyd edək ki, bu təyinata qədər R.Binnətli adıçəkilən televiziyanın direktor müavini idi, eyni zamanda direktor vəzifəsini icra edirdi.

# BMT azərbaycanlı sülhməramlını təltif etdi

***Azərbaycan sülhməramlısı BMT-nin medalı ilə təltif olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın BMT-dəki Nümayəndəliyinin "Twitter" hesabında məlumat verilib.

Bildirilib ki, Azərbaycan sülhməramlısı mayor İlkin Xəlilov - BMT-nin Cənubi Sudandakı Missiyasının hərbi üzvü kimi vəzifələrini layiqincə yerinə yetirdiyinə və sülhün qorunmasında xidmətlərinə görə Birləşmiş Millətlər Təşkilatının medalı ilə təltif olunub.

# Konstitusiya Məhkəməsinin hakimi vəfat etdi

***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradov vəfat edib.***

"Unikal"ın məlumatına görə, o, uzun sürən xəstəlikdən sonra 66 yaşında dünyasını dəyişib.

Qeyd edək ki, 16 oktyabr 2012-ci ildə Azərbaycan Prezidentinin təqdimatı əsasında Milli Məclisin qərarı ilə Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin olunub. 2016-cı ildə Prezidentin sərəncamı ilə "Əməkdar hüquqşünas" fəxri adı verilib.

# Zakir Qaralovu gözləyən böyük təhlükə

## Keçmiş baş prokurorun müəmmalı susqunluğunun sirri nədir?

***Ötən ilin son günlərinə damğa vuran çıxışlardan biri Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Zahid Orucdan gəldi. O, "Uzun müddətli və ardıcıl mübarizədən sonra "Tərtər işi" nəhayət, obyektiv həllini tapdı" deyərək Baş prokurorluğun qərarı ilə Ermənistana casusluq adı ilə məhkum edilən 19 şəxsə bəraət verilməsini ədalətin qələbəsi adlandırdı.***

"Yalnız cənab Prezidentin məsələyə müdaxiləsi və yeni İstintaq Komissiyası yaratmasından sonra 2 ay ərzində ləyaqətli müstəntiqlər yüzlərlə şəxsi dindirərək, kənar təzyiqlərə və təxribatlara baxmayaraq, 288 zərərçəkən şəxsin işini yenidən icraata qəbul edərək ümumilikdə 405 nəfərin hüquqlarını təmin edirlər" deyən Oruc ilginc fikirlər səsləndirdi. Onun keçmiş Baş prokuror Zakir Qaralovun "Tərtər işi"ndə haqsızlıqla üzləşən hərbçilərin anaları ilə bir dəfə də olsun görüşməməsini və saxta ittihamnamələri araşdırmamasını vurğulaması isə xüsusi diqqət çəkdi.



Ən maraqlısı isə odur ki, Milli Məclis tribunasından səsləndirilən bu önəmli sözlərə Qaralovun hələ də cavab verməməsidir. Sabiq Baş prokurorun sözügedən mövzuda susqunluğu təəccüb doğurur. Axı onun ünvanına deyilən irad, hətta ittiham hansısa media orqanından, ya da sıravi vətəndaşdan gəlməyib. Məlum fikirlər ölkənin ali qanunverici orqanında dilə gətirilib və Qaralovun birbaşa borcudur ki, həmin fikirlərə münasibət bildirsin.

Onu da unutmayaq ki, Zahid Orucun söylədikləri əslində media və cəmiyyətin əhəmiyyətli qisminin xeyli vaxtdır dilə gətirdiyi ittihamlardır.

Görünən odur ki, Zakir müəllim hələ Baş prokuror olarkən əldə etdiyi maddi və siyasi imtiyazlara çox güvənir, belə hesab edir ki, haqqında irəli sürülən iddialara cavab vermək kimi borcu yoxdur. Halbuki istənilən ölkədə belə iddialara (ittihamlara!) görə Qaralovu gecə yuxu yatmağa qoymazlar.

Üstəlik, unutmayaq ki, söhbət yalnız "Tərtər işi" kimi tükürpədici dosyedən də getmir.

Sabiq Baş prokurorun barəsində məzmun etibarilə fərqli olsa da, zahirən belə ağlasığmaz iddiaların nə sayı var, nə hesabı. Məsələ burasındadır ki, keçmiş Baş prokuror Zakir Qaralova aid olduğu deyilən "Akkord" şirkətinin çoxmilyonluq dövlət layihələrinin icrasında ciddi yeyintilərə yol verildiyi son vaxtlar cəmiyyətdə və mediada əsas müzakirə mövzularından biridir. Bunu adıçəkilən biznes subyektinin çoxsaylı məhkəmə proseslərinin iştirakçısına çevrilməsi də təsdiqləyir. Şirkətin adı mütəmadi olaraq məhkəmə prosesləri və iddialarda çəkilir. Müşahidələr göstərir ki, iddiaların əksəriyyəti alqı-satqı müqavilələrinin icrası ilə bağlıdır, bunların bir hissəsi görülən işlərə görə ödənişlərin gecikdirilməsinə aiddir.

O da maraqlıdır ki, "Akkord"la bağlı qalmaqallı xəbərlər Zakir müəllim vəzifəsindən uzaqlaşdırıldıqdan sonra xüsusilə intensivləşib. Bu isə Azərbaycan təcrübəsində tez-tez rastlaşdığımız haldır: hansısa yüksək vəzifəli şəxs öz postunu itirdikdən sonra onun nəzarətində və yaxud himayəsindəki şirkətlərin də çətin günləri başlayır (kiçik haşiyə: xatırladaq ki, 2000-ci il aprelin 25-də Baş prokuror vəzifəsinə təyinat alan Zakir Qaralov bu postu 20 ildən sonra tərk etdi, daha doğrusu, həmin vəzifədən azad edildi. Və bu barədə qərar açıqlanandan sonra medianın yazdığına görə, onun özünə qalsaydı, yəqin ki, daha 5 il müddətinə qalıb işləyərdi). Elə "Akkord" da Z.Qaralov Baş prokuror vəzifəsini itirdikdən sonra ardıcıl şəkildə məhkəmə iddiaları, müxtəlif məzmunlarda çoxsaylı vətəndaş şikayətləri ilə gündəmə gəlir. Bu da azmış kimi, Qaralovun şirkətinin külli miqdarda vergi borcunun olduğu ortaya çıxmışdı. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yaydığı məlumatda deyilirdi ki, "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin 980 min 418 manat vergi borcu var. 2006-cı ildə dövlət qeydiyyatına alınan şirkətin vergi borcu barədə açıqlamanın Z.Qaralovun vəzifədən uzaqlaşdırıldıqdan (1 may 2020-ci ildən) qısa müddət sonra açıqlanması da diqqət çəkməyə bilməzdi.

Qaralovun Baş prokuror olduğu dönəmdə səlahiyyətlərindən istifadə edərək çoxsayda vətəndaşı, o cümlədən, sahibkarı cinayət məsuliyyətinə cəlb etməsi, yaxud cinayət məsuliyyəti ilə hədələyərək özünə Azərbaycan reallığında fantastik sayılacaq mənfəət qazandırması da başqa bir söhbətin mövzusudur.

Lakin bütün bu sadalanan faktların bir ortaq özəlliyi var: Zakir müəllim barəsində söylənilən, üstəlik, əksəriyyətinin gerçəkliyi şübhə doğurmayan iddialara susqunluqla "cavab" verir. Sanki demək istəyir ki, mən "dəyirman" olaraq öz işimdəyəm, "çax-çaxlar" - media, cəmiyyətin ayrı-ayrı təbəqələri və s. - baş ağrıdır.

Eybi yox, Qaralov qoy bu cür də düşünsün. Ancaq o, ölkənin ali qanunverici orqanının üzvünün, bu da azmış kimi, həmin orqanın - parlamentin Komitə sədrinin kifayət qədər tutarlı, təqdirəlayiq ittihamları önündə də susursa, deməli, "pişiyin quyruğu" görünür. Sabiq Baş prokuror bəlkə bilmir, ya da bəlkə unudub, ona görə də xatırladaq - susmaq razılıq əlamətidir.

Qaralov bu bəsit həqiqəti qəbul etmirsə, xub! Onda çıxıb özü haqqında deyilənlərə bircə-bircə, özü də ümumi, mücərrəd sözlərlə yox, konkret şəkildə, dəqiq faktlarla cavab versin!

Əks təqdirdə, Zakir müəllim onu gözləyəcək böyük təhlükəyə hazırlıqlı olmalıdır.

Çünki Səməd Vurğunun məşhur misraları ilə desək, bir də onu görəcəyik ki, "dünən hökm verən bu gün can verir"...

**Sənan Mirzə**



# Yeni bahalaşma dalğası gözlənilir

## Ekspertlər hesab edirlər ki, bugünkü maaş, təqaüd artımları ərzaq inflyasiyasına adekvat deyil, sahibkarlara isə əlavə xərc yaradacaq





***Xəbər verildiyi ki, Azərbaycanda minimum əməkhaqqının və əmək pensiyasının məbləği artırıldı. 2023-cü ildən etibarən ölkədə minimum əməkhaqqının məbləği 345 manata, əmək pensiyasının minimum məbləği isə 280 manata çatdırılıb.***

Rəsmi məlumatlara görə, bu artımlar bir milyona yaxın vətəndaşa şamil olunacaq. Yəni, minimum əməkhaqqı artımı 700 min nəfəri, minimum pensiyanın artması da təxminən 100 min nəfəri əhatə edəcək.

Minimum əməkhaqqının artırılması üçün 440 milyon manata yaxın vəsaitin ayrılması nəzərdə tutulur. Bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib. O qeyd edib ki, minimum əməkhaqqı məbləği artırılacaq şəxslərin 440-450 minini dövlət sektorunda çalışanlar təşkil edir. Nazir müavini bildirib ki, yeni sərəncama əsasən, minimum pensiya 280 manata çatdırılacaq, müavinət və təqaüdlər artırılacaq: "Bununla bağlı Nazirlər Kabineti təkliflərini on gün müddətində hazırlayaraq dövlət başçısına təqdim edəcək. Beləliklə, minimum aylıq pensiyanın məbləği də 16,7 faiz artırılaraq 240 manatdan 280 manata çatdırılacaq. Bu artım 100 minədək pensiyaçını əhatə edəcək".

Təəssüflə qeyd etmək lazımdır ki, hazırda ölkədəki qiymət artımı və real inflyasiya bu artımlardan daha çoxdur. Nəzərə alsaq ki, adətən pensiya, müavinət və təqüdlərin artırılmasından sonra ölkədə müxtəlif məhsullarda bahalaşma müşahidə olunur.

Artımlarla bağlı "Unikal"a açıqlama verən iqtisadçı ekspert Natiq Cəfərli bildirib ki, bu, qiymət artımına səbəb ola bilər: "Azərbaycanda bəzi yazılmamış qanunlar var. Belə ki, maaşların, təqaüdlərin artımı xəbərinin özü belə qiymət artımını təttikləyən bir faktordur. İllərdir bu belə davam edir. Yəni, xəbərin özü çıxan kimi, məlum olur ki, artıq bazarlarda qiymətlərin artımı daha da sürətlənib. Buna bənzər mənzərə ilə yenə qarşılaşa bilərik, çünki dəyişən bir şey yoxdur. Bu xəbərlərin özü istər-istəməz qiymət artımının sürətinə təsir göstərəcək. Biz bu qiymət artımını Novruz bayramından sonrakı dövrə qədər hiss edəcəyik. Bu, həmişə belə olub. Yeni il qabağı qiymətlər artır, qiymət artımı Novruz bayramına qədər davam edir. Bayramdan sonra, yay aylarında isə qiymətlərdə bir az sabitləşmə müşahidə olunur.

Rəsmi rəqəmlərə baxsaq, Azərbaycanda inflyasiya 14% olub. Minimum əməkhaqqının məbləği isə 300 manat idi. 300 manatın 14 faizi 42 manat edir. Bu gün isə minimum əməkhaqqının məbləği 345 manata çatdırılıb. Bu, inflyasiyanın indeksləşdirilməsi deməkdir. Problem budur ki, rəsmi inflyasiya rəqəmləri insanları çox az maraqlandırır.

Birincisi, ərzaq inflyasiyası daha vacibdir, çünki insanlar qazanclarının yarıdan çoxunu ərzağa xərcləyir. Ötən il ərzində ərzaq inflyasiyası 22% idi. Hətta bu da doğru rəqəm deyil. Belə ki, ərzaq inflyasiyası ümumi, yəni 560 adda ərzaq məhsuluna görə hesablanır. Buna baxmayaraq, əhalinin ən çox istifadə etdiyi cəmi 30 adda məhsul var. Onlar gündəlik tələbat malları hesab edilir. Həmin məhsulların inflyasiyası daha yüksəkdir. Burada təxminən 40%-ə yaxın inflyasiyadan söhbət gedir. Bütün bunları nəzərə alsaq, təbii ki, bugünkü maaş, təqaüd artımları ərzaq inflyasiyasına adekvat deyil", - deyə o qeyd edib.

İqtisadçı ekspert Samir Əliyev isə artımlarla bağlı fərqli məqama diqqət çəkib: "Son artımlar sahibkarlara təsirsiz ötüşməyəcək. Bu aydan DSMF-yə Sumqayıtda qeydiyyatda olanlar 67,5 manat (Bakı üzrə 75 AZN) əvəzinə 77,6 manat (Bakı üzrə 86.25 manat) ödəyəcəklər. Üstəgəl icbari tibbi sığorta haqqı 12 manatdan 13,8 manata yüksəlir. Yəni Bakıda işləyənlər ayda hesabına 100 manat pul gəlsə, üstünə 5 manat 5 qəpik qoyub hökumətə qaytarmalı olacaqlar. Yəni, bu artımlar sahibkarları əlavə xərcə salacaq".

***Murad İbrahimli***

# "Sputnik"in baş redaktoru həbs edildi

***Latviya xüsusi xidmət orqanları "Sputnik Litva" agentliyinin baş redaktoru Marat Kasemi saxlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə agentliyin "Telegram" kanalında məlumat yayılıb.

O, Avropa İttifaqının sanksiyalarını pozmaqda və casusluqda şübhəli bilinir.

"Yanvarın 5-də məhkəmə iclası keçirilib, orada həbs-qətimkan tədbirinin seçilməsi məsələsinə baxılıb. Kaseminin vəkili onun zaminə buraxılmasında israr etsə də, məhkəmə həbs-qətimkan tədbiri seçilməsinə qərar verib. Bu gün jurnalist artıq Riqa mərkəzi həbsxanasına köçürülüb", - məlumatda deyilir .

Bildirilr ki, sanksiyaların pozulması ilə bağlı maddə beş ilədək, casusluğa görə isə 20 ilədək həbs cəzasını nəzərdə tutur.

# Şəmkirdə qumbara partlayışı ilə bağlı rəsmi açıqlama

***Şəmkirdə iki nəfərin xəsarət alması ilə nəticələnən partlayışın təfərrüatları açıqlanıb.***

DİN-in Mətbuat Xidmətinin Gəncə regional qrupunun baş inspektoru polis kapitanı Eşqin Qasımov "Unikal"a bildirib ki, ilkin araşdırmalar nəticəsində hadisənin Binnət Qarayev və Nəsib Heydərov sonuncuya məxsus "VAZ 2107" markalı avtomobildə olan zaman B.Qarayevin əlindəki qumbaranın partlaması nəticəsində baş verməsi məlum olub.

Hazırda B.Qarayevin qumbaranı haradan əldə etməsi və digər təfərrüatlar barədə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinə Ermənistanla bağlı ikinci müraciətini təqdim edib

***Azərbaycan tərəfi Ermənistanın azərbaycanlıların insan hüquqlarının məqsədyönlü şəkildə pozulmasına cavab olaraq, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiya (CERD) çərçivəsində təcili tədbirlər görülməsi məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinə ikinci müraciətini təqdim edib.***

Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

Müraciətdə deyilir:

"Xüsusilə, Ermənistanın 2021-ci ildən başlayaraq Azərbaycan ərazisində minalar və evlərdə mina tələlər yerləşdirməkdə davam etdiyinə dair yeni sübutlar mövcuddur. Bu minalar və mina tələlər Ermənistanın qanunsuz işğalı nəticəsində azərbaycanlıların 30 il əvvəl qovulduğu mülki yaşayış məntəqələrində və ya onların yaxınlığında yerləşdirilməklə məcburi köçkün ailələrinin və icmaların öz evlərinə qayıtmasına maneçilik törədir.

Ermənistan tərəfi Üçtərəfli Bəyanatı kobud şəkildə pozaraq hərbi təxribatlarını davam etdirib və 2022-ci ilin avqust ayından etibarən Azərbaycanda 2021-ci il Ermənistan istehsalı 2700-dən çox mina aşkar olunub. Minaların Ermənistanın Üçtərəfli Bəyanatla bütün hərbi əməliyyatları dayandırmağa, qüvvələrini Azərbaycandan çıxarmağa və azərbaycanlı məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıtmasına razılığından sonra yerləşdirdiyinə dair sübutlar mövcuddur. Sözügedən minaların yarıdan çoxu azərbaycanlı məcburi köçkünlərin qayıtmalı olduğu mülki ərazilərdə aşkar edilib. Bundan əlavə, Ermənistan bu minaların və digər silahların daşınması məqsədilə yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan açıq şəkildə istifadə edir.

Mülki ərazilərin minalarla hədəfə alınması nəinki günahsız mülki şəxslərin həyatına təhdid yaradır, Azərbaycanın hələ də əldə olunmasına sadiq qaldığı sülh sazişini təhlükə altında qoyan bir təxribatdır. Cəmi üç həftə əvvəl Kəlbəcər rayonunda minanın partlaması nəticəsində 7 azərbaycanlı, o cümlədən bərpa işlərində iştirak edən 4 mülki şəxs yaralanıb, bir azərbaycanlı isə həlak olub.

Azərbaycan, mülki vətəndaşlarının qayıdacaqları rayonların operativ, təhlükəsiz və effektiv şəkildə minalardan təmizlənməsi istiqamətində Ermənistanın dərhal lazımi addımlar atması, mülki əraziləri mina və digər partlayıcı maddələrlə hədəfə almaması və bu xüsusda Laçın yolundan istifadəni dayandırması məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edib.

Azərbaycan tərəfi beynəlxalq insan hüquqları hüququnu pozduğuna görə Ermənistanın məsuliyyətə cəlb edilməsi istiqamətində səylərini davam etdirəcək".

# Azərbaycanda minimum aylıq əməkhaqqı artırıldı



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, Azərbaycanda minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən 345 manat müəyyən edilib.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə 10 gün müddətində əmək pensiyasının minimum məbləğinin 280 manata çatdırılması, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Nazirlər Kabineti, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli, bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

# Türkiyədə prezident seçkiləri təxirə salına bilər



***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkədə iyunun 18-nə təyin edilmiş prezident və parlament seçkilərinin təxirə salınmasının mümkünlüyünü istisna etməyib.***

"Unikal" xəbər verir ki, bu barədə o, çərşənbə günü parlamentdə jurnalistlərə bildirib.

"Cəmiyyətdə bu və ya digər şəkildə müzakirə olunan hər şey bizim gündəmimizdədir. Su yerində dayanmır" - deyə Ərdoğan ümumi seçkilərin tarixinin təxirə salınmasının mümkünlüyü ilə bağlı sualı cavablandırıb.

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çelik yanvarın 2-də jurnalistlərə deyib ki, seçki tarixi geri çəkilə bilər. Onun sözlərinə görə, Ərdoğanın rəhbərlik etdiyi partiya müxtəlif variantları nəzərdən keçirir.

Seçkilər təxirə salınarsa, mümkün tarixlər aprelin 30-u, mayın 7-si və ya 14-üdür.

AKP ilə birlikdə Milliyyətçi Hərəkat Partiyasının (MHP) də daxil olduğu hakim Xalq Alyansı bir müddət əvvəl Türkiyənin hazırkı prezidentinin onun vahid namizədi olacağını açıqlamışdı. Müxalifət hələlik prezident seçkilərində öz namizədini müəyyənləşdirməyib.

# Prezident və birinci xanım Bakıda Uşaq-Gənclər İnkişaf Mərkəzində

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Uşaq-Gənclər İnkişaf Mərkəzində əsaslı təmir və bərpadan sonra yaradılan şəraitlə tanış olublar.***



"Unikal" xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev Mərkəzdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verib.

Bildirilib ki, 1937-ci ildə Bakıda S.Vəlixanlı küçəsi 3 ünvanında yerləşən binada Mərkəzi Pionerlər Sarayı yaradılıb. Bundan məqsəd uşaqların asudə vaxtını səmərəli və məqsədəuyğun təşkil etmək, onların bilik, bacarıq və vərdişlərini inkişaf etdirmək, məktəbdənkənar tərbiyə işinin təşkilində uşaqlara praktiki və metodiki kömək göstərməkdən ibarət olub.

İlk vaxtlar sarayda texniki yaradıcılıq, bədii tərbiyə, təsviri sənət, fiziki tərbiyə üzrə dərnəklər fəaliyyət göstərib. 1946-cı ildə sarayda xoreoqrafiya, xalq çalğı alətləri, qarmon ifaçıları və xor kollektivlərindən ibarət mahnı və rəqs ansamblı yaradılıb. Bəstəkar Qəmbər Hüseynli ansambl üçün "Cücələrim" mahnısını yazıb. Məhz bu səbəbdən 1959-cu ildə kollektiv "Cücələrim" adlandırılıb.

Təqribən 15 il sonra -1961-ci ilin aprelində dünyanın ilk kosmonavtının şərəfinə saraya Yuri Qaqarinin adı verilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 1991-ci il 427 saylı qərarına əsasən Y.Qaqarin adına pioner və məktəblilər sarayının adı dəyişdirilib, Tofiq İsmayılov adına Respublika Uşaq-Gənclər Yaradıcılıq Sarayı adlandırılıb.

Nazirlər Kabinetinin 2016-cı il 1 noyabr tarixli qərarına uyğun olaraq Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi və Tofiq İsmayılov adına Bakı Şəhəri Uşaq-Gənclər Yaradıcılıq Sarayı birləşdirilərək onların bazasında Uşaq-Gənclər İnkişaf Mərkəzi yaradılıb, bu il isə ona publik hüquqi şəxs statusu verilib.

Fəaliyyəti dövründə minlərlə istedadlı gəncin müxtəlif ixtisaslar üzrə formalaşmasında mühüm xidmətləri olan Mərkəz 2022-ci ildə əsaslı təmir edilib. İstifadəyə verildikdən sonra Mərkəzdə rəqs, musiqi alətləri, vokal, sağlam həyat tərzi, teatr, rəssamlıq, xarici dillər, intellektual inkişaf, elm və texnologiya, ekoklub, psixologiya, kulinariya və turizm istiqamətləri üzrə 44 dərnək təşkil olunub. Həmin dərnəklərdə 1500 nəfərədək şagirdin məşğul olması nəzərdə tutulub. Həmçinin binada 20 inzibati, 20 texniki və 65 pedaqoji işçi çalışacaq.

Qeyd edək ki, bu Mərkəzin binasının əsaslı təmiri və bərpası Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın gənc nəslin müasir dövrün inkişaf trendlərinə uyğun formalaşmasına göstərdikləri diqqət və qayğının daha bir nümunəsidir.

# XİN başçılarının üçtərəfli görüşü BƏƏ-də olacaq

***Türkiyə, Rusiya və Suriya xarici işlər nazirlərinin görüşünün Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) keçirilməsi gözlənilir.***

"Russia Today" bu barədə Ankaradakı mənbələrindən məlumat əldə etdiyini yazıb.

Məlumata görə, dünən BƏƏ-nin XİN başçısı Abdullah Bin Zayid Əl-Nahyanla Suriyanın paytaxtı Dəməşqdə səfərdə olub və görüşlə bağlı detalları müzakirə edib. Qeyd edək ki, XİN başçılarının üçtərəfli görüşü yanvar ayının ikinci yarısında keçiriləcək. Görüşün baş tutacağını Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da təsdiqləyib.





# Putin bu tarixə atəşkəs elan etdi

***Rusiya Prezidenti Vladimir Putin müdafiə naziri Sergey Şoyquya 6 yanvar saat 12:00-dan 7 yanvar 24:00-dək Ukraynanın bütün təmas xətti boyunca atəşkəs rejiminin tətbiq edilməsini tapşırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb,

# 45 tona yaxın yararsız məhsul məhv edildi

***İstehlaka yararsız 72 adda 10,2 ton, "Sun Food" MMC-yə məxsus 34,53 ton müxtəlif növ qida məhsulu məhv edilib.***

Bu barədə "Unikal"a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) məlumat verilib.

Bildirilib ki, istifadə müddəti bitmiş qida məhsullarının məhv edilməsi ilə bağlı Agentliyə daxil olan müraciət əsasında, "AZ FP CO LTD" MMC-yə məxsus 72 adda 10,2 ton, "Sun Food" MMC-yə məxsus 34,53 ton müxtəlif növ qida məhsulu "Təmiz-Sumqayıt Kənan" MMC-nin tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib.





# Son sutkada yoluxanların sayı açıqlandı

***Azərbaycanda son sutkada koronavirus infeksiyasına 66 yeni yoluxma faktı qeydə alınıb, 83 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Bakıda “STEAM İnnovasiya Mərkəzi”nin açılışı oldu

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda “STEAM İnnovasiya Mərkəzi”nin açılışında iştirak ediblər.***



”Unikal” xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlət başçısına və birinci xanıma Mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, “STEAM İnnovasiya Mərkəzi”nin dördmərtəbəli yeni binasında aviasiya məkanı, klassik Nyuton, uşaqlar üçün Nyuton, konfrans, oyun, konstruksiya, “Heureka Classics” otaqları, robotların hazırlanması laboratoriyası, “3D hologram”, VR zonaları mövcuddur.

Qeyd edək ki, müasir dünya reallıqları gələcəkdə yüksəkixtisaslı mütəxəssislərin yetişməsi üçün təhsil qarşısında bir çox mühüm vəzifələr qoyur. Həyatın bütün sahələrində işlərin yeni dünya düzəninə uyğun qurulması üçün təhsil ocaqlarında öyrənmək maraqlı olmalı, bilik təcrübədə tətbiq edilməli, təlim maraqlı formada keçilməlidir. Yəni, bu günün məzunları müasir tələblərə cavab verən, əmək bazarında özünü doğruldan şəxslər olmalıdır. Elə bu məqsədlə də Elm və Təhsil Nazirliyi 2019-2020-ci tədris ilindən başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə “STEAM Azərbaycan” layihəsinə start verib. STEAM - elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birləşməsi nəticəsində yeni ideyaların reallaşdırılması, cəmiyyətdə müxtəlif problemlərin həllinə kömək edə biləcək təhsil yanaşmasıdır. Hazırda ölkəmizin bir sıra məktəblərində STEAM otaqları və mərkəzləri fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, “STEAM Azərbaycan” layihəsinin davamı olan “STEAM İnnovasiya Mərkəzi”nin fəaliyyəti orta məktəblərdə eyniadlı mövcud mərkəzlərin tədris proqramına görə fərqlənir. Bu Mərkəzə müraciət edən müxtəlif yaş kateqoriyasından olan məktəblilər və tələbələr XXI əsr bacarıqlarını - kreativliyi, əməkdaşlığın inkişaf etdirilməsini, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə qabiliyyətlərini yüksəldəcəklər. Uşaqlar real həyat problemləri ilə qarşılaşdıqda, STEAM metodu vasitəsilə onun rahatlıqla ən uyğun həlli yollarını tapmağa çalışacaq və yaradıcı yanaşmalarını nümayiş etdirəcəklər.

Məlumat verilib ki, bu Mərkəzin məqsədi şagirdlərin potensialını və maraqlarını cəmiyyətə xidmət işinə yönəltmək, onları öyrənməyə həvəsləndirməkdir. STEAM tədris üsulu müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafında çox böyük əhəmiyyətə malikdir. Belə ki, uşaqlar bu metod vasitəsilə elmin digər sahələri ilə yanaşı, beyinlərinin məhsulunu ortaya qoya biləcək, gələcəyin mütəxəssisləri kimi yetişəcək və ölkənin inkişafına töhfələrini verəcəklər.

Bu Mərkəzin yaradılması dövlətimiz tərəfindən ölkəmizdə elm və təhsil sahəsində yeniliklərin tətbiqinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyalarının reallaşdırılmasına göstərilən diqqətin və verilən əhəmiyyətin əyani təzahürüdür.

# Hava kəskin dəyişəcək - 15 dərəcə şaxta olacaq

***Bakıda və Abşeron yarımadasında bir neçə gün davam edən mülayim, isti hava şəraitindən sonra yanvarın 8-dən başlayaraq havanın dəyişəcəyi, arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir.***

Bu barədə Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova bildirib. O qeyd edib ki, şimal-şərq küləyi ayın 7-si axşamdan 8-i gündüzədək yarımadanın bəzi yerlərində arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 10-12 dərəcə enərək, yanvarın 10-11-də gecə 2 dərəcəyədək şaxta, gündüz 0 dərəcəyə yaxın olacaq: “Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq yanvarın 7-si axşamdan ayın 12-dək ölkə ərazisində havanın dəyişəcəyi, arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı, ayrı-ayrı yerlərdə intensivləşəcəyi gözlənilir”.

G.Məmmədova qeyd edib ki, qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 10-12 dərəcə enərək, gecə 0-5 dərəcə şaxta, gündüz 4 dərəcəyədək isti, dağlıq rayonlarda isə gecə 10-15, gündüz 5-8 dərəcə şaxta olacaq. Gözlənilən yağıntılı və şaxtalı hava şəraiti ilə əlaqədar yolların buz bağlama ehtimalı var.

Qeyd edək ki, artıq qonşu ölkələrdə də havanın kəskin dəyişməsi, şid-



dətli şaxtalarla bağlı əhaliyə xəbərdarlıq olunub. Məsələn, Rusiyanın paytaxtı Moskvada yanvarın 6-dan 10-na qədər mənfi 29 dərəcəyə qədər şaxta gözlənilir. Bu, Moskvada son 23 ilin, yəni bu əsrin ən soyuq 5 günü olacaq.

Həmçinin Türkiyədə də son 16 ilin ən güclü qarı yağacaq. Bugündən etibarən bir çox bölgələrdə qarlı hava müşahidə olunur. Sabahdan isə daha şiddətli şaxtaların olacağı gözlənilir.

# TƏBİB-də yeni departament yaradıldı - Zamirə Ədilova rəhbər oldu

***“Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin (TƏBİB) yeni strukturuna əsasən, ictimaiyyətlə əlaqələr işinin təkmilləşdirilməsi, kütləvi informasiya vasitələri ilə sıx əməkdaşlıq, ictimai nüfuzun yüksəldilməsi məqsədilə yeni departament yaradılıb.***



TƏBİB-dən verilən məlumata görə, yeni yaradılan İctimaiyyətlə əlaqələr və marketinq departamentinin tərkibində İctimaiyyətlə əlaqələr və Marketinq şöbələri fəaliyyət göstərəcək.

Departamentin fəaliyyəti TƏBİB-in kütləvi informasiya vasitələri (KİV) və ictimaiyyətlə əlaqələr sahəsində işini təşkil etmək, qurumun marketinq strategiyasını müəyyən etmək, tədbirlərin təşkilini həyata keçirmək, tabeli tibb müəssisələrində ictimaiyyətlə əlaqələr, marketinq və tədbirlərin təşkili sahəsini koordinasiya etməkdən ibarətdir.

TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanovun əmri ilə İctimaiyyətlə əlaqələr və marketinq departamentinin rəhbəri vəzifəsinə Zamirə Ədilova təyin olunub. O, bu təyinatadək TƏBİB-in İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili şöbəsinin müdiri olub.



# Minimum pensiyanın artırılması 100 minədək adamı əhatə edəcək

***Prezident İlham Əliyevin yeni Sərəncamına əsasən, minimum pensiya 280 manata çatdırılacaq, müavinət və təqaüdlər artırılacaq. Bununla bağlı Nazirlər Kabineti təkliflərini on gün müddətində hazırlayaraq dövlət başçısına təqdim edəcək.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən “Unikal”a verilən xəbərə görə, beləliklə, minimum aylıq pensiyanın məbləği də 16,7 faiz artırılaraq 240 manatdan 280 manata çatdırılacaq. Bu artım 100 minədək pensiyaçını əhatə edəcək.

Son 4 ildə sosial sahədə inqilabi islahatların tərkib hissəsi kimi, minimum əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata, minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb.

Ümumilikdə bu il sosial ödənişlərdə yeni artımlar üçün əlavə 750 milyon manat vəsait nəzərdə tutulub. Həmin artımlar 1,9 milyon vətəndaşı əhatə edəcək.

# Qərbi Azərbaycandan deportasiya olunanların siyahıya alınmasına başlanıldı

***”Ötən əsrdə Qərbi Azərbaycandan deportasiya edilən soydaşlarımızın siyahıya alınması prosesi ilk olaraq 1988-1991-ci illərdə həmin ərazilərdən çıxarılanlarla bağlı aparılır”.***

”Unikal” xəbər verir ki, bunu Qərbi Azərbaycan İcmasının mətbuat katibi Ülviyyə Zülfiqar deyib.

O bildirib ki, bu tarixdə deportasiya olunan soydaşlarımızın əksəriyyəti həyatdadır: ”Onların şəxsiyyət vəsiqələri (pasport), həmçinin Ermənistan SSR-də təhsil aldıqlarına dair, eləcə də mülkiyyətləri ilə bağlı sənədləri var. Xronologiya baxımından sonuncu deportasiya (1988-1991-ci illər) yaxın vaxtda baş verdiyindən işimizin daha sürətli getməsi üçün prosesə həmin dövrdən başlamışıq. Həmin dövrdə azərbaycanlıların yaşadıqları 300 yaşayış məntəqəsindən 150-dən çoxunun əhalisi hazırda siyahıya alınıb və bu istiqamətdə iş davam etdirilir”.

Mətbuat katibi qeyd edib ki, əlavə olaraq digər deportasiyalar (1905, 1918-1920, 1948-1953) zamanı ata-baba yurdlarından çıxarılan azərbaycanlılar da qeydiyyata alınır.

”Lakin hələ ki, əsas diqqət 1988-1991-ci illərdəki deportasiyaya yönəldilib. Bu proses yekunlaşandan sonra digər illərdə zərər görənlərin və onların varislərinin qeydiyyatı tam şəkildə aparılacaq”.

# Nazir rüşvətə görə işdən çıxardığı DYP rəisinin yerinə onu təyin etdi

***Xaçmaz Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsinə yeni rəis təyin edilib.***

”Unikal”ın əldə etdiyi məlumata görə, bununla bağlı daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb. Əmrə əsasən, Xaçmaz DYP-nin rəisi vəzifəsinə Füzuli Əsədov təyinat alıb. O, bu təyinatadək Xızı DYP-nin rəisi olub.

Xatırladaq ki, Xaçmaz DYP-nin sabiq rəisi Elnur Quliyev rüşvət qalmaqalına görə işdən çıxarılmışdı. Yayılan görüntülərdə polis mayoru Elnur Quliyevin otaqda polis əməkdaşları ilə pul müzakirə etdiyi əks olunmuşdu.

***Murad İbrahimli***

# “Bizim təhsilimiz sağlamlaşdırılmalıdır”

## Musa Qasımlı: “Əgər problemlər, onları yaradan səbəblər və onu aradan qaldırmağın yolları deyilirsə, lakin problemlər davam edirsə, ortaya sual çıxır, günah kimdədir?”

***Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, deputat Musa Qasımlı ”Unikal”a müsahibə verib. O, bu il ölkəmizdə gözlənilən dəyişikliklərdən, Xankəndi-Laçın yolunda keçirilən aksiyalardan, İran-Azərbaycan münasibətlərindən və s. məsələlərdən danışıb.***

***-Musa müəllim, bu il ölkəmizdə hansı dəyişikliklərin olacağını düşünürsüz?***

-2023-cü ilin ölkəmiz, millətimiz üçün uğurlu olacağına inanıram və buna əminəm. Fikrimcə, bu il də dövlətimizin daxili siyasətində bütün sahələrdə islahatlar, modernləşmə davam etdiriləcək. Həyata keçiriləcək siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdəki tədbirlər millətimizin daha qüdrətli olmasına, vətəndaşların daha yaxşı yaşamasına və dövlətin güclənməsinə yönələcək. Əminəm ki, xarici siyasətdə də uğurlarımız olacaq. Çünki 2022-ci il xarici siyasət sahəsində ölkəmiz üçün uğurlu oldu. Dövlətimizin beynəlxalq mövqeləri möhkəmləndi. Praqa və Soçi görüşündə Azərbaycanın ərazi bütövlüyü, müharibənin nəticələri bir daha Ermənistan tərəfindən qəbul edildi.

***-Ötən il Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar davam etdirildi. Necə düşünürsüz, 2023-cü ildə sülh müqaviləsi imzalana bilərmi?***

-Ötən il dövlətimizin xarici siyasətində ən vacib məsələlərdən biri bu oldu ki, Prezident İlham Əliyev bütün səviyyələrdəki çıxışlarında birmənalı şəkildə bildirdi ki, Qarabağ məsələsi Azərbaycanın daxili işidir, onu heç kimlə müzakirə etmir. Bir çox dövlət başçıları da çıxışlarında ”dağlıq” ifadəsini işlətmədilər. Bu il də həmin siyasətin davam etdiriləcəyi şəksizdir. Ermənistan sülh müqaviləsinin imzalanmasını yubadır, bunun da bir sıra səbəbləri var. Onlar nə zamansa şəraitin yaranmasını gözləyirlər, vaxtı uzadırlar. Düşünürlər ki, xarici havadarlarının köməyi ilə nəyəsə nail ola bilərlər. Ona görə delimitasiya, demarkasiya və sülh müqaviləsinin imzalanmasını daim geriyə atırlar. Bundan əlavə onlar, Üçtərəfli bəyanatla üzərlərinə götürdükləri digər öhdəlikləri də yerinə yetirmirlər. Yəni, silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmırlar, Naxçıvanla əlaqənin qurulmasına imkan vermirlər. Əlaqə dedikdə, dəhliz, yol, digər kommunikasiyalar nəzərdə tutulur. Hesab edirəm ki, Ermənistanın bu gözləntiləri heç bir nəticə verməyəcək. Prezident İlham Əliyev nitqlərinin birində aydın şəkildə dedi ki, biz bütün variantlara hazırıq. Ən rahat yol danışıqlardır. Çünki Ermənistanın gələcəyi qonşularla mehriban münasibətlərdən keçir.

***-30 günə yaxındır ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda aksiya keçirilir. Bu aksiyanın necə sona çatacağını gözləyirsiniz?***

-Ötən il Xankəndi-Laçın yolunda başlayan dinc aksiya Azərbaycanın ”yumşaq güc” siyasətinin uğurlarından biridir. 30 günə yaxındır davam edən bu aksiya keçirilən günlərdə ölkəmizin ərazisindən qanunsuz olaraq, quldurcasına təbii sərvətlər talanıb aparılmır, xarici ölkə vətəndaşları ölkəmizin ərazisinə daxil olmur, silah-sursat daşınmır. Aksiyanın ekologiyanı mühafizə etməsi məqsədilə keçirilməsi dünyaya da təsir edir. Bu aksiyanın qətiyyən uydurma blokada ilə heç bir əlaqəsi yoxdur. O yoldan Beynəlxalq Qırmızı Xaç Komitəsinin(BQXK) nəqliyyat vasitələri və təcili yardım maşınları hərəkət edə bilirlər. Düşünürəm ki, aksiya məqsədinə çatmayana qədər dayandırılmamalıdır. Çünki onun çox ağır nəticələri ola bilər.

***- Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi təyin olundu. Hansı yeniliklərin olacağını gözləmək olar və bəzən referendumun olacağı, Naxçıvanın muxtar respublika statusunun ləğv olunacağı ilə bağlı fikirlər də səsləndirilir...***

-Bu məsələlər Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə daxildir. Dövlət heç bir zaman səhv etmir. Dövlət həmişə mövcud şəraitdə ən doğru olanı edir və müvafiq qərarlar qəbul olunur. Ölkəmizdə aparılan islahatların uğurlu olacağına tam əminəm.



***- Naxçıvanda olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə də Azərbaycan Respublikası prezidentinin xüsusi nümayəndələri var. Bu, yeni idarəetmə modelini necə qiymətləndirirsiz və gələcəkdə digər hansı sahələrdə yeniliklər ola bilər?***

-Düşünürəm ki, dövlət başçımız bütün məsələləri çox dəqiq bilir və hamı da görür ki, aparılan islahatlar səmərəlidir, idarəçiliyi çevik edir. ASAN-xidmət və DOST mərkəzlərinin fəaliyyətinə diqqət yetirək. Onlardan narazı qalan vətəndaşı görməzsiz. Hesab edirəm ki, idarəetmə sahəsində aparılan islahatlar idarəçiliyi daha çevik edir və hakimiyyətlə vətəndaşı daha da yaxınlaşdırır.

***-İran-Azərbaycan münasibətləri ilə bağlı fikirləriniz də maraqlı olardı. Azərbaycan-İran münasibətlərində bəlli bir gərginlik var. Bu il ölkələr arasında münasibətlərdə hansı dəyişiklik ola bilər?***

-Açıq söyləmək lazımdır ki, Azərbaycan heç bir zaman İrana düşmən münasibət bəsləməyib. Həmişə İranla mehriban qonşuluq və əməkdaşlığın tərəfdarı olub. Amma bütün ötən illər ərzində İran tərəfindən bu münasibəti görməmişik. İran bizim dövlət müstəqilliyimizə tərəfdar olsada, Azərbaycanı zəif və gözdən düşmüş bir dövlət kimi görmək istəyib. Orada belə hesab edirlər ki, güclü Azərbaycan Cənubi Azərbaycana təsir edə bilər. Münasibətlərdə yaranan bütün gərginliyin səbəbi İrandakı hakimiyyətlə bağlıdır. Məsuliyyət onların üzərindədir. İranın sərhədlərimiz boyu hərbi təlimlər keçirməsi düşmənçiliyin nümunəsidir. Təbii ki, İran müstəqil dövlətdir. İstədiyi ərazisində hərbi təlimlər keçirə bilər. Amma soruşulur nə üçün İran hakimiyyəti bu təlimləri Əhvazda, Bəlucistanda və digər ərazilərində deyil, məhz Azərbaycanla sərhəddə keçirir? Azərbaycana gücmü nümayiş etdirmək istəyir? Azərbaycan dövləti cavabını verdi. Son onilliklər tariximizdə ilk dəfə olaraq cənab Prezident bildirdi ki, biz təlimləri keçirməklə onlara göstərdi ki, biz sizdən qorxmuruq. Hesab edirəm ki, İranın mövcudluğu Azərbaycanla mehriban qonşuluq münasibətlərindən keçir. İranda azərbaycanlıların sayı təxminən 40 milyondur. Təqribən 5 milyon da Türk var. İran Türk ölkəsidir. İranın Azərbaycana qarşı xoş münasibət bəsləməməsi odla oynamaqdır, şüşəli camda oturub başqasının keçilməz qalasına daş atmaqdır.

***-Siz parlamentin Elm və təhsil komitəsinin sədr müavinisiz. Komitə iclaslarında təhsil sahəsində olan problemlərdən danışırsız. 2023-cü ildə təhsil sahəsində hansı islahatlara ehtiyac var?***

-Təhsili irəli aparmaqdan ötrü ilk növbədə problemləri bilmək lazımdır. Biz bu problemləri söyləyirik. Problemləri yaradan səbəbləri bilməliyik. Həmin səbəbləri də söyləyirik. Bu problemlərin aradan qaldırılmasının yolları var. Onu da deyirik. Əgər problemlər, onları yaradan səbəblər və onu aradan qaldırmağın yolları deyilirsə, lakin problemlər davam edirsə, ortaya sual çıxır, günah kimdədir? Cənab Prezident təhsil sahəsində dövlətin strategiyasını dəqiq müəyyənləşdirib və müvafiq sənədlər də var. Ən müasir məktəblər tikilib, bütün ifrastruktur var. Elə məktəblər var ki, onların təmirə və tikintisinə ehtiyac var. Əgər bu məsələ həll olunmursa, yenə də gəlib kadrlara dayanır. Problemləri aradan qaldırmağa məsul olan kadrlara bu sual yönəldilməlidir. Problemləri aradan qaldırmağın yolları deyilir, amma qaldırılmır. Digər çoxlu problemləri söyləmək olar. Hesab edirəm ki, bizim təhsilimiz sağlamlaşdırılmalıdır. Tikilən müasir məktəblərdə dərslər yaxşı keçirilməlidir. Müəllimlərin sertifikatlaşdırılmasına getməliyik. Təhsilin keyfiyyətini yaxşılaşdırmağın yollarından biri budur. Dərslikləri keyfiyyətli yazmaq lazımdır. Çox təəssüf ki, dərsliklərin çoxu bərbad haldadır.

***Anar Kəlbiyev***

# İri rangli məmurların 2023 qorxusu

## Yeni ildə hansı yüksəkvəzifəlilər postları ilə vidalaşa bilər?



***Yeni ilə qədəm basdıq. Onun bizə nə gətirəcəyini kəsdirmək, daha doğrusu, dəqiq söyləmək çətindir. Lakin keçən ilə baxdıqda müəyyən ehtimallar söyləmək mümkündür. Sadə səbəbdən:təcrübə göstərir ki, əksər hallarda yeni il köhnə ilin güzgüsüdür.***

Elə isə gəlin öncə arxada qalan ilə nəzər salaq.

Hər dəfə olduğu kimi, 2022-ci il də ölkədə bir sıra yüksək vəzifəli məmurların işdən azad edilməsi ilə yadda qaldı. İşdən azad edilənlər xüsusilə uzun illər həmin vəzifədə qalması ilə fərqlənib.Məsələn, fevralın 10-da Rövnəq Abdullayev 15 ildir tutduğu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti vəzifəsindən azad edildi. Elə həmin ay Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Ramiz Mehdiyevin istefa ərizəsi qəbul olundu. Aprelin 12-də isə Milli Məclisin qərarı ilə Elman Rüstəmov Mərkəzi Bankın İdarə Heyətinin üzvlüyündən kənarlaşdırıldı. O, İdarə Heyətinin üzvlüyündən azad edilməklə həm də AMB sədrliyindən uzaqlaşdırıldı. E.Rüstəmov 1995-ci ilin yanvar ayından Mərkəzi Bankın rəhbəri idi. Ötən ilin mayında isə Cavid Qurbanovun "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalandı. İyulda Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev 4 ildir tutduğu bu vəzifəni itirdi.

İlin sonlarında isə öncə Vasif Talıbov Naxçıvan Ali Məclisinin sədri vəzifəsindən azad edilib, ardınca da mədəniyyət naziri postu ilə vidalaşıb.

Yeni ildə bir sıra yüksək vəzifəli məmurun postu ilə vidalaşa biləcəyinə dair ehtimallar mövcuddur. Bu sırada ilk adıçəkilən "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) rəhbəri Cahangir Əsgərovdur. 73 yaşlı Əsgərov 27 ildir bu dövlət şirkətinə rəhbərlik edir. Onun rəhbərlik dövrü ailə biznesinin çiçəklənməsi, əvəzində isə monopolist şirkət olmasına, dövlətdən iri məbləğdə dotasiyalar almasına, üstəlik, uçuş biletlərini fantastik məbləğdə satmasına baxmayaraq AZAL-ın borc bataqlığına sürüklənməsi ilə yadda qalıb. Son vaxtlar C.Əsgərov bahalı uçuş biletlərinə görə nəinki ictimaiyyətin və medianın, hətta millət vəkillərinin sərt tənqid hədəfindədir.

2023-cü ildə vəzifəsindən kənarlaşdırılacağı deyilən daha bir yüksək vəzifə sahibi olaraq 78 yaşlı Yaqub Eyyubov göstərilir. 1999-cu ildə baş nazirin müavini, 2003-cü ildən isə birinci müavin postunu tutan Eyyubovun yaşı ilə əlaqədar vəzifəsindən göndərilməsi sürpriz qarşılanmayacaq.

Bundan başqa, maliyyə naziri Samir Şərifov üçün də 2023-cü ilin bir o qədər çətin keçməyəcəyini təxmin etmək mümkündür. Təzəlikcə o, özünün ən mühüm səlahiyyətlərindən birini itirdi. Keçən saylarımızdan birində xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə fərman imzalandı. Sözügedən dəyişikliklə Şərifovun nazirliyi öz vəzifələrini həyata keçirmək üçün büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya və digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada aylıq hesabat almayacaq. Əvvəl isə Maliyyə Nazirliyi öz vəzifələrini həyata keçirmək üçün büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya və digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada aylıq, rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və inzibati təsnifat üzrə hesabatlar almaq hüququna malik idi. Artıq həmin səlahiyyət Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətində olacaq. Dövlət rəhbəri həmin Xidmətin İdarə Heyətinin sədri təyin edilməsi haqqında da sərəncam imzaladı. Sərəncama əsasən bu posta Zaur İntiqam oğlu Fəti-zadə təyin olunub.

Bu qərar Samir Şərifovun yola salınması istiqamətində ilk addımlardan biri olaraq dəyərləndirilir. Bildirilir ki, Maliyyə Nazirliyinin büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya və digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada aylıq hesabat alınması səlahiyyətindən məhrum edilməsi yaxın gələcəkdə Şərifovun digər bir çox mühüm səlahiyyətlərindən də məhrum edilməsinin siqnalıdır. Bir sözlə, onun tədricən "portfelsiz nazir"ə çevrilməsi qaçılmaz görünür. Təcrübə isə belə tendensiyanın sonda ümumiyyətlə nazir postundan kənarlaşdırılmaqla yekunlaşdığını göstərir. Odur ki, 2006-cı ildən bu yana, düz 16 ildir maliyyə naziri postunu tutan 62 yaşlı Şərifovun da yaxın vaxtlarda öz vəzifəsi ilə vidalaşacağını təxmin etmək mümkündür.

Şərifov "köhnə komanda" üzvlərindəndir və onun ölkədə aparılan genişmiqyaslı islahatlar dalğasından öz nəsibini alaraq vaxtından əvvəl təqaüdə göndərilməsi tamamilə gözləniləndir.

Yazıda adları çəkilənlər yeni ildə vəzifəsiz qalmaq qorxusu ilə yaşayan iri məmurların heç də hamısı deyil. Bu sırada başqa yüksəkvəzifəlilər də var ki, onlar barəsində də bəhs edəcəyik. Eyni zamanda 2023-cü ildə postundan uzaqlaşdırılacaqlar arasında bəzi icra başçılarının da adları sadalanır. Həmin icra başçılarının kimliyini də qəzetimizin növbəti saylarında öyrənəcəksiniz.

***Sənan Mirzə***



# Azərbaycanda yenidən devalvasiya ola bilərmi?

***"2023-ci ildə manatın məzənnəsinin necə dəyişəcəyi son günlər ən çox ünvanlanan suallardandır. Mərkəzi Bank milli valyutanın məzənnəsinə təhdidlərin olmadığını bəyan edib. Bununla yanaşı, il ərzində qlobal proseslərə, xüsusən də regional dəyişikliklərə reaksiya veriləcəyi də istisna edilmir.".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, Rusiya-Ukrayna müharibəsi fonunda 2022-ci il neft bazarı üçün düşərli olsa da. 2023-cü ilə birjalar heç də yüksək qiymətlə başlamayıb:

"Brent markalı neftin bir barelinin qiyməti 80 dollardan ucuz təklif olunur. Köhnə ilin son günü ilə müqayisədə neftin qiyməti son 5 gündə 8.0 faizdən çox dəyər itirib. Bu isə neft ixracatçısı olan ölkələrin valyuta gəlirləri baxımından arzuolunan deyil. 2023-cü ildə qlobal iqtisadiyyatın durumu, Çində COVID-19 pandemiyasının yayılma coğrafiyası və tezliyi, eləcə də Rusiya-Ukrayna müharibəsinin gedişatı strateji bazarlara təsir edəcək. Böyük Yeddiliyin (G7) Rusiya neftinə qiymət tavanı müəyyənləşdirməsi isə "qara qızıl"ın qiymətində artımları xeyili dərəcədə məhdudlaşdırır.

Manatın məzənnəsinə təsir göstərən əsas iqtisadi faktorlar ölkəyə daxil olan valyutanın həcmi, eyni zamanda Dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləğidir. Valyutaya olan tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir. Bu baxımdan, Neft Fondunun hərraca çıxartdığı vəsaitlərin həcmi dollara olan tələbin ödənilməsində çox önəmlidir. Bu da təbii ki, manatın məzənnəsi baxımından vacib hesab olunur. Xarici ölkələrdəki tərəfdaşlarımızda milli valyutaların məzənnələri də əslində iqtisadi faktorlardan biridir. Azərbaycanda hələ ki, məzənnə rejiminə keçirilməyib. Mərkəzi Bank prosesə birbaşa intervensiya etmək imkanlarını qoruyub saxlayır. Ona görə də bu il manatın məzənnəsinin necə dəyişməsi birbaşa Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq".

***Seymur Əli***

# Gömrük generallarının həbs müddəti uzadıldı

***Dövlət Gömrük Komitəsi yanında "Azərterminalkompleks" Birliyinin sabiq direktoru Ehtiram Xəlilov və Komitəsinin Əməliyyat-istintaq Baş İdarəsinin sabiq rəisi Məsum Rəsulov barəsində seçilmiş həbs qətimkan tədbirinin uzadılması ilə bağlı vəsatətlərə baxılıb.***

"Unikal" Apa-ya istinadən xəbər verir ki, Səbail Rayon Məhkəməsində keçirilən iclasda istintaq orqanının vəsatətləri əsaslı hesab olunub.

Qərara əsasən, Ehtiram Xəlilov və Məsum Rəsulovun həbs müddətləri daha 3 ay uzadılıb.

Qeyd edək ki, Ehtiram Xəlilov və Məsum Rəsulov Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyatlarla həbs olunublar.

Generallar Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə) və 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə) 311.3.2 və 311.3.3-cü (təkrar külli miqdarda rüşvət alma) maddələri ilə ittiham olunurlar.

# Son günlər yayılmış qriplə bağlı açıqlama



*"Əgər pandemiyadan əvvəlki illəri yadımıza salsaq, bu dövrlər həmişə respirator infeksiyalar geniş yayılır. Qrip daha ağır formalarla, respirator infeksiyalar müxtəlif formada ortaya çıxır".*

Bunu "Unikal"a açıqlamasında tanınmış həkim, tibb elmləri doktoru, professor Adil Qeybulla deyib.

Həkim qeyd edib ki, koronavirusun 4 forması hər il mövsümi soyuqdəymə xəstəliyi törədir: "Onlar pandemiyaya qədər də mövcud idi. Bundan başqa, qripin özü hər il müxtəlif mutasiya variantları ilə peyda olur və xeyli arialda xəstəlik yaradır. Azərbaycanda da bunun olmasına təəccüb etmək lazım deyil. Respirator infeksiyalar sərhəd tanımırlar. Bir məsələni də nəzərə almaq lazımdır ki, pandemiya hələ bitməyib. Mutasiya prosesləri davam edir. Pandemiyada bu cür infeksiyalardan qorunmaq, qapalı mühitdə özünü necə aparmaq, hansı gigiyenik qaydalara riayət etməklə bağlı xeyli təcrübə əldə etmişik. Hesab edirəm ki, insanlar bundan istifadə etməlidirlər".

*Anar Kəlbiyev*

# Nazirlikdən uşaqlar arasında yayılan virusla bağlı çağırış

***"Uşaqlarda immun sistem böyüklərlə müqayisədə nisbətən zəifdir. Bunun səbəbi immun sistemin tam formalaşmamasıdır. İlk 6-7 il immun sisteminin aktiv inkişaf etdiyi dövrdür. Bu yaşa qədər olan uşaqlar tez-tez xəstələnirlər, xüsusən də payız-qış mövsümündə".***

"Unikal" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, pediatr Əkbər Quliyev deyib.

O, bu kimi halların qarşısını almaq üçün valideynlərə bəzi tövsiyələr və məsləhətlər verib: "Ana südünün uşaqlarda immun sisteminin yaradılmasında və gücləndirilməsində birbaşa əlaqəsi var. Bu səbəbdən ilk 6 ay ancaq ana südü ilə qidalanma çox önəmlidir. Valideynlər uşaqların gündəlik qida rasionunda bütün qida maddələrin olmasına diqqət yetirməlidirlər. Xüsusən istər xəstəlik dövrü, istərsə də sağlam zamanda yetəri qədər maye qəbul edilməsi şərtdir. Qidalanma qədər yuxu da uşaqlar üçün çox önəmlidir. Hər bir uşaq gün ərzində 8-11 saat yatmalıdır. Bundan əlavə, əllərin düzgün və təmiz yuyulmasına diqqət yetirmək vacibdir. Mövsümə uyğun geyimlərdən istifadə olunmalıdı. Qeyd edim ki, anemiya, B, Fe, Zn və D vitamlərinin əskikliyi də müqaviməti azaldır və tez-tez xəstələnməyə səbəb olur. Xəstəliklərin çoxu havadamcı yolu ilə yoluxur. Buna görə də insanların çox olduğu qapalı, havasız məkanlardan uzaq olmaq lazımdır. Otaqların havası tez-tez dəyişdirilməlidir".

Mütəxəssis eyni zamanda uşaqlar arasında müşahidə olunan ürəkbulanma və qusmanın səbəblərini də açıqlayıb: "Mədə-bağırsaq xəstəlikləri, sidik yolları infeksiyaları, nevroloji xəstəliklər və zəhərlənmələr 60-70 faiz hallarda mədə-bağırsaq sistemi ilə əlaqədar olur. Qusma 24-48 saat ərzində əsasən keçib getməlidir. Keçmirsə, mütləq həkimə müraciət etmək lazımdır, çünki bu hal uşaqlarda su itkisinə səbəb olur. Digər ən önəmli məqamlardan biri də uşağın pəhrizinə fikir verməkdir. Ətli, yağlı, qızarmış yeməklərdən istifadə etmək olmaz. Asan həzm olunan qidalardan (meyvə, ayran, qatıq, buxarda bişirilən tərəvəzlər, çörək və s.) istifadə olunması tövsiyə olunur. Bu zaman az-az və tez-tez yemək daha yaxşıdır".

# DSX Xəzərdə 2 kq narkotik aşkarladı

***Azərbaycan Respublikasının dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi və qaçaqmalçılığa qarşı mübarizə tədbirləri davam etdirilir.***

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən "Unikal"a verilən məlumata görə, yanvar ayının 4-də saat 20:40-da Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin bölmələrinin xidməti-döyüş fəaliyyəti çərçivəsində Xəzər dənizinin cənub istiqamətində dəniz sərhədlərinin mühafizəsini həyata keçirən sərhəd gözətçi gəmisi tərəfindən ərazinin müşahidəsi zamanı plastik çəlləklərə bərkidilmiş bir ədəd şübhəli kisə aşkarlanıb.

Aşkar edilmiş kisəyə baxış zamanı 2 kiloqram 070 qram narkotik vasitə (1 kiloqam 990 qram "marixuana" və 80 qram "həşiş") aşkar olunaraq götürülüb.

Fakt üzrə əməliyyat-istintaq tədbiri davam etdirilir.

# Vasif Talıbovun qardaşına məxsus inhisarçı şirkətdəki yoxlamaların pərdəarxası

## Muxtar Respublikada rəqibsiz fəaliyyət göstərən "Sürət Kargo" ilə bağlı bir-birindən ilginc iddialar dolaşır



***Naxçıvanda Sürət Kargo MMC-nin ofisində yoxlamalar başlayıb. Yoxlamalar şirkətin Naxçıvan şəhəri Təbriz küçəsi, 1 ünvanındakı mərkəzi ofisində və anbarlarında aparılır. Bu barədə lent.az-ın əldə etdiyi məlumatda bildirilir.***

Məlumata görə, sözügedən şirkət həm ölkədaxili, həm də beynəlxalq poçt bağlamalarının daşınmasını həyata keçirir. Sürət Kargo MMC Azərbaycan Respublikasında və Türkiyə Cumhuriyyətində qeydiyyatdan keçmiş və hər iki ölkədə özünəməxsus ofislərində fəaliyyət göstərir.

Şirkət Naxçıvan Ali Məclisinin keçmiş sədri Vasif Talıbovun qardaşı Məhərrəm Talıbova məxsusdur və bölgədə bağlamanın daşınmasını həyata keçirib.

Sürət Kargo-nun Trendyol.com , Morhipo.com , Modamizbir.com , Hepsiburada.com , n11.com və Türkiyəyə məxsus digər məşhur alış-veriş saytlarından, eləcə də ünlü markalara ("Boyner", "Tudors", "Damat", "Kığılı", "addax", "Armine", "MAVİ" və s.) məxsus mağazalardan sifariş edilən məhsulları müştərilərinə çatdırdığı vurğulanır.

Bu MMC xüsusilə Naxçıvanda tamamilə rəqibsiz fəaliyyət göstərib və bununla da qanunvericiliyin tələblərini pozub. Məhərrəm Talıbov qardaşına arxalanaraq Muxtar Respublikada karqo sahəsində rəqib şirkətlərin ortaya çıxmasına imkan verməyib.

həmin postu tuturdu.

İddialara görə, M.Talıbov vaxtilə qardaşının ailə biznesi olan "Cahan Holdinq"i idarə edirmiş. Təxminən 10-11 il öncə holdinq üzərində söz sahibi olmaq uğrunda iki qardaş arasında ixtilaf yaşandığı da bildirilir. "O zaman Ali Məclisin sabiq sədri qardaşının əvəzinə "Cahan" holdinqə nəzarəti öz biznes ortağı, kürd əsilli Emil Ucarı həvalə etmək istəyirdi. Lakin bunu uzun müddət bacarmamışdı. Məhərrəm Talıbov qardaşının təzyiqlərinə baxmayaraq holdinqi əldən verməmək üçün xeyli dirənmişdi. Lakin sonda Vasif Talıbov istəyinə nail oldu" deyə bildirilir.

"Sürət Kargo"nu isə M.Talıbovun bir neçə il əvvəl yaratdığı deyilir. Həmin şirkət bu sahədə monopoliyaçı kimi tanınır.

Son anda gələn məlumata görə isə Sürət Kargo MMC-nin Ordubaddakı və Bakıdakı ofislərində də yoxlamalar başlayıb.

"Unikal" sözügedən şirkətlə bağlı bəzi bilgilər əldə edib. Məlum olub ki, Vasif Talıbovun qardaşına məxsus Sürət Kargo MMC Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əldə etdiyi lisenziya ilə həm ölkədaxili, həm də beynəlxalq poçt bağlamalarının daşınmasını həyata keçirir. Fəaliyyət göstərdiyi müddət ərzində şirkət həm Türkiyədən Azərbaycana həm də Bakı - Naxçıvan və Naxçıvan - Bakı istiqamətlərində minlərlə məyib.

Onun şirkətinin vergidən yayındığına dair də iddialar var və yoxlamaların həm də bu istiqamətdə aparıldığı bildirilir. Həmçinin "Sürət Kargo"nun gömrük qanunvericiliyinin tələblərini də pozmuş ola biləcəyi deyilir və aparılacaq yoxlamalarda ortaya ciddi qanunsuzluqların çıxarılacağına şübhə edilmir.

Onu da vurğulayaq ki, qardaşı Ali Məclis sədri olanadək Məhərrəm Talıbov Naxçıvan Muxtar Respublikası prokurorunun müavini postunu tutub. Lakin V.Talıbovun "vurulmasından" sonra o da "öz arzusu ilə" tutduğu vəzifədən azad edilib və sərəncama götürülüb.

M.Talıbov 2008-ci ildən qısa vaxtda, şübhəsiz ki, sahibinin maddi gücü və təsir imkanları sayəsində böyüyüb.

O da maraqlıdır ki, hələ həm qardaşı, həm də özü vəzifədə olarkən M.Talıbovun həbs edildiyinə dair məlumat yayılmışdı. Noyabrda yerli mediada yayılan həmin məlumatda onun Bakıya gətirildiyi və anti-korrupsiya əməliyyatlarına görə dindirildiyi iddia edilirdi. Həmin vaxt V.Talıbovun qardaşı bu iddia barədə susmağa üstünlük vermişdi. Lakin sonradan baş verənlər, eləcə də indi onun şirkətində yoxlamalara başlanılması "od olmayan yerdən tüstü çıxmadığını" bir daha təsdiqləmiş oldu...

*Gülçin*

# Dövlət Əmək Müfəttişliyi Xidməti ilə iri ticarət mərkəzləri arasında müəmma...

## Xidmət mallar-da işçi hüquqlarının kobud şəkildə pozulmasına nə üçün göz yumur? - Ortada ilginc iddialar var

***Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının rəhbəri (NHMT) Mirvari Qəhrəmanlı Azərbaycandakı iri ticarət mərkəzləri ilə bağlı ilginc iddialarla çıxış edib. Mirvari xanım eyni zamanda müvafiq səlahiyyət sahibləri tərəfindən ticarət mərkəzlərində iş yerlərinin attestasiyasının keçirilməsinin vacib olduğunu vurğulayıb.***

"Bakıdakı iri ticarət mərkəzlərinin (malların) sahiblərinin diqqətinə! Apardığım müşahidələrə, gördüklərimə və danışdığım işçilərin söhbətlərinə istinad edərək bildirirəm ki, sahibi olduğunuz əksər qurumlarda tərəfinizdən ölkənin əmək qanunvericiliyi pozulur" deyə səslənən Qəhrəmanlı daha sonra bu fikirlərini arqumentləşdirib:

- işçiləriniz 10-12 saat işləyir. Bunun müqabilində aldıqları əmək haqqı aşağıdır. Normadan artıq iş saatlarına, gecə və zərərli işə görə, həmçinin, bayram, istirahət günlərində əlavə ödəniş edilmir;

- nahar fasiləsi nəzərdə tutulmayıb;

- demək olar ki, bütün şöbələrinizdə güclü səs (musiqi) mövcuddur. Bu cür aramsız şəkildə səsləndirilən güclü səs isə insan orqanizminə ziyandır.

İşçilər cavandır. Hələ hiss eləmirlər. Zaman gələcək sağlamlıqlarına vurulmuş bu zərbəni hiss edəcəklər. İnsafınız olsun, cənablar!

Bundan başqa, Mirvari xanım Dövlət Əmək Müfəttişliyi Xidmətinin (DƏMX) əmək qanunvericiliyinin icrasındakı məsuliyyətini (15-ci maddə) xatırladıb. "Bu qurum prosesi izləmir, izləməyəcək də! Ərizə daxil olmadığını bəhanə edəcək. Ərizə daxil olanda da deyəcəklər məhkəməyə müraciət et" deyən Qəhrəmanlı ictimai nəzarət edəcək qurumun (309-cu maddə) isə həmkarlar təşkilatı olduğunu vurğulayıb. "O da çoxdan "ölü" quruma çevrilib" deyə NHMT rəhbəri bildirib.

Beləliklə, ölkənin əmək hüquqlarının müdafiəsi istiqamətində ən tanınmış ekspertlərindən biri işçi haqları baxımından daha bir önəmli problemə toxunub. Bəs onun söylədiklərinə aidiyyatı qurumun reaksiyası varmı? Təəssüf ki, həmişə olduğu kimi xeyr! Dövlət Əmək Müfəttişliyi Xidməti əmək qanunvericiliyinin tələblərinə riayət edilməsinə müşahidəçi qalmağa davam edir.

Bu yaxınlarda DƏMX-in fəaliyyəti ilə bağlı başqa bir tənqidi məqalə dərc etmişdik. Orada da adıçəkilən Xidmətin öz vəzifə borcunu yerinə yetirməkdə çətinlik çəkdiyini bildirmiş və konkret şəkildə yazmışdıq ki, uzun illərdir DƏMX ölkədə işçinin yox, işəgötürənin tərəfini tutmaqda ittiham olunur. Halbuki bu qurum mülkiyyət və təşkilatı-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən Azərbaycan Respublikasının hüquqi şəxsləri, xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər (işəgötürənlər) tərəfindən Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının əmək qanunvericiliyi sisteminə daxil olan digər normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır! Qısacası, onun vəzifəsi əmək qanunvericiliyinə əməl olunması sahəsində dövlət nəzarətini həyata keçirmək, əmək qanunvericiliyinin pozulmasında təqsirkar şəxsləri Azərbaycan Respublikasının inzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada inzibati məsuliyyətə cəlb etmək və digər məsuliyyətə cəlb olunması üçün müvafiq dövlət orqanları qarşısında məsələ qaldırmaq, eyni zamanda işəgötürənlərə və işçilərə əmək qanunvericiliyinin tətbiqi barədə metodiki köməklik göstərməkdir.




Lakin Mirvari xanımın yazdıqlarından da aydın olduğu kimi, ortada belə bir köməklik yoxdur, ya da o qədər mikroskopikdir ki, gözlə görmək müşkülə çevrilib.

Ən acınacaqlısı odur ki, DƏMX-nin rəhbərliyi vaxtaşırı dəyişsə də, qurumdan narazılıqlar, onun fəaliyyəti ilə bağlı tənqidlər səngimir. Belə çıxır ki, Xidmət rəisi dəyişsə də, iş prinsipi dəyişmir, bu dövlət orqanı ilə bağlı narazılıqlar, giley-güzarlar olduğu kimi qalır. Həmin narazılaqların, gileygüzarların əsasını da DƏMX-nin əksər hallarda işçi haqlarının kobud şəkildə pozulmasına seyrçi qalması, bir növ, müşahidəçi mövqeyindən çıxış eləməsidir. Bunun səbəbi isə bəlli deyil; daha doğrusu, eyhamlar və ehtimallar var, lakin qurum haqqındakı ittihamları qəbul etmədiyindən həmin eyham və ehtimalları da rədd edir. Məsələn, işəgötürən tərəfdən Xidmət müfəttişlərinin "xoş" qarşılanması və bunun müqabilində də həmin müfəttişlərin işçi haqlarının pozulmasını görməzdən gəlməsi kimi! Ya da DƏMX-nin nüfuzlu məmurlar tərəfindən himayə olunan obyektlərdə əmək hüquqlarının tapdanmasına səs çıxarmaqdan qorxduğu, çəkindiyi kimi! Əgər bu cür iddialar yanlışdırsa, onda aydın şəkildə açıqlanmalıdır ki, niyə ölkədə əmək qanunvericiliyinin tələblərinə əməl olunması baxımından vəziyyət müsbətə doğru köklü şəkildə dəyişmir?

Niyə axı, niyə?!

***Toğrul Əliyev***

# Nazirlik: Əməkhaqqı artımı 700 min nəfəri əhatə edəcək



***Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam ölkəmizdə son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanmasını, yeni ildə yeni sosial islahat mərhələsinə keçidi təmin edir.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Unikal"a verilən xəbərə görə, Sərəncamla minimum aylıq əməkhaqqı 1 yanvar 2023-cü ildən 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırılıb.

Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da bir ay müddətində bu Sərəncama uyğunlaşdırılacaq və minimum əməkhaqqı artımı vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək.

Ümumilikdə minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqı artımı 700 min nəfəri əhatə edəcək.

Minimum əmək haqqı bu il üçün müəyyən olunan yaşayış minimumunu (246 manat) da 40,2 faiz üstələyir.

Yeni Sərəncama əsasən, minimum pensiya 280 manata çatdırılacaq, müavinət və təqaüdlər artırılacaq. Bununla bağlı Nazirlər Kabineti təkliflərini on gün müddətində hazırlayaraq dövlət başçısına təqdim edəcək.

Beləliklə, minimum aylıq pensiyanın məbləği də 16,7 faiz artırılaraq 240 manatdan 280 manata çatdırılacaq. Bu artım 100 minədək pensiyaçını əhatə edəcək.

Son 4 ildə sosial sahədə inqilabi islahatların tərkib hissəsi kimi, minimum əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata, minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb.

Ümumilikdə bu il sosial ödənişlərdə yeni artımlar üçün əlavə 750 milyon manat vəsait nəzərdə tutulub. Həmin artımlar 1,9 milyon vətəndaşı əhatə edəcək.

# Xankəndi-Laçın yolunda sülhməramlıların avtomobilinin hərəkətinə şərait yaradılıb

***Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha bir təminat avtomobilinin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.***

Nəqliyyat vasitəsinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub. Belə ki, həmin avtomobil Xankəndidən Laçın istiqamətinə keçib.

Xatırladaq ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolundakı etiraz aksiyası 25 gündür davam edir.

Belə ki, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

Gün ərzində daha bir neçı keçid baş tutub. Belə ki, Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha dörd avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb. Nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub. Belə ki, sülhməramlılara məxsus daha 1 minik və 3 təminat avtomobili Xankəndidən Laçın istiqamətinə keçib.

Bundan əlavə, sülhməramlılara məxsus 2 minik və 6 təminat avtomobili Xankəndidən Laçın istiqamətinə keçib.



# Ali məktəblərə tələbə qəbulu üzrə sınaq imtahanları keçiriləcək

***Dövlət İmtahan Mərkəzi fevralın 12-də qəbul imtahanı modelinə uyğun sınaq imtahanı keçirəcək.***

Bu barədə "Unikal"a mərkəzdən məlumat verilib. Bildirlib ki, sınaq imtahanında iştirakçılara 2023-cü ildə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanının II mərhələsinin modelinə uyğun olaraq test tapşırıqları hər qrupda 3 imtahan fənni üzrə aşağıdakı kimi təqdim olunacaq:

I ixtisas qrupu üzrə imtahan vermək istəyənlər RK və ya Rİ, III ixtisas qrupu üzrə imtahan vermək istəyənlər DT və ya TC altqrupu üzrə imtahan vermək istədiklərini qeyd edirlər. Hər iki altqrup üzrə imtahanda iştirak etmək istədiklərini qeyd edənlər isə fevralın 12-də imtahan (I qrup - riyaziyyat, fizika, kimya, III qrup - Azərbaycan (rus) dili, tarix və ədəbiyyat fənləri üzrə) verdikdən sonra fevralın 19-da altqruplara müvafiq olaraq informatika və coğrafiya fənni üzrə əlavə imtahan verəcəklər.

Sınaq imtahanında istifadə olunacaq test tapşırıqları 11-ci sinif üçün ümumtəhsil müəssisələrində qüvvədə olan tədris proqramlarının 2023-cü il yanvar ayının sonunadək olan hissəsini əhatə edəcək.

Abituriyentlərə hər fənn üzrə 30 test tapşırığı təqdim olunur. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tiplidir. Açıq tipli tapşırıqlardan 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və ya mənbə əsasında hazırlanan tapşırıqlardır. Digər açıq tipli tapşırıqlar uzun müddət istifadə olunan və cavabları kodlaşdırıla bilən hesablama, seçim, xronologiya, uyğunluğu müəyyənetmə formalı tapşırıqlardır.

İmtahanın müddəti 3 saatdır (informatika və coğrafiya fənni üzrə əlavə imtahanın müddəti 1 saat). Yazılı cavablandırılması tələb olunan açıq tipli tapşırıqların cavabları "cavab vərəqi"ndə nəzərdə tutulan müvafiq yerlərdə, digər tapşırıqların cavabları isə "cavab kartı"nda qeyd olunur. İmtahanın sonunda cavab vərəqələri və cavab kartları abituriyentlərdən təhvil alınır.

Sınaq imtahanına qeydiyyat 29 yanvar saat 23:59-dək aparılacaq.

İmtahanlar fevralın 12-də Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Şəmkir, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz və Lənkəran şəhərlərində təşkil olunacaq. Fevralın 19-da keçiriləcək informatika və coğrafiya fənni üzrə əlavə imtahan isə Bakı şəhərində keçiriləcək.

Sınaq imtahanına qeydiyyatdan keçmək üçün ekabinet.dim.gov.az keçidində "Şəxsi kabinet" yaradılmalıdır (şəxsi kabineti olmayanlar). "Şəxsi kabinet"in "Hesab" bölməsinə imtahanda iştirak üçün nəzərdə tutulan məbləğ (40 AZN) yüklənilir. I qrup üzrə RK və Rİ, III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər öz kabinetlərinə müvafiq olaraq informatika və coğrafiya fənnindən əlavə imtahan üçün 15 AZN də yükləməlidirlər.

Hesaba lazımi miqdarda vəsait əlavə etmək üçün müxtəlif ödəniş üsullarından yararlanmaq olar.

Daha sonra DİM-in saytında yerləşdirilən qeydiyyat linki vasitəsilə "Şəxsi kabinet"in istifadəçi adı və parolundan istifadə etməklə sistemə daxil olub "İmtahana buradan yazılın" düyməsini basmaq lazımdır. Açılan səhifədə imtahan yeri seçilir. Sonra isə şəxsiyyəti təsdiq edən sənədin məlumatları, telefon nömrəsi, imtahan verəcəyiniz bölmə, ixtisas qrupu seçilir və "Qeydə al" düyməsi basılır.

İmtahan yeri (binası) barədə məlumat imtahandan bir həftə əvvəl Mərkəzin saytına yerləşdiriləcək "İmtahana buraxılış vərəqəsi"ndə qeyd olunacaq.

# Tikinti oliqarxlarının bitmək bilməyən oyunları

## Onlara milyonlar qazandıran "saxta mənzil" hoqqasının şok pərdəarxası; məmurlarla gizli və kirli sövdələşmələr acınacaqlı mənzərə yaradıb

***Bu günlərdə Xırdalan şəhərində saxta sənədlərlə mənzilləri təkrar satmaqla məşğul olan vəzifəli şəxslər barəsində həbs qətimkan tədbiri seçildiyi barədə rəsmi xəbər yayıldı. Baş Prokurorluqdan verilən həmin məlumatda kifayət qədər ilginc nüanslar yer alıb.***

Bildirilib ki, "çoxsaylı vətəndaş narazılığına səbəb olan "PROGRESS-2016" MTK-nın vəzifəli şəxsləri tərəfindən eyni mənzilin bir neçə şəxsə satılması faktlarına dair Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı davam etdirilir.

İstintaq zamanı "Hayan E" MTK-nın direktoru Nəsirov Rafiq Nəsib oğlu və "PROGRESS-2016" MTK-nın direktoru Səməndərov Emil Tofiq oğlu tərəfindən Abşeron rayonu, Xırdalan şəhəri, Rəsulzadə küçəsində inşa olunan yaşayış binasındakı mənzillərin müxtəlif şəxslərə satılmasına baxmayaraq, qanunsuz gəlir əldə etmək məqsədilə digər şəxslərə saxta sənədlər əsasında yenidən satılmasına dair əsaslı şübhələr müəyyən edilib".

Məlumatda o da qeyd edilib ki, cinayət işi üzrə 26.12.2022-ci il tarixdə Nəsirov Rafiq Nəsib oğlu Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda dələduzluq), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü maddəsi (vəzifə saxtakarlığı), Səməndərov Emil Tofiq oğlu isə Cinayət Məcəlləsinin 178.4 (xüsusilə külli miqdarda dələduzluq), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələrilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə ibtidai istintaq davam etdirilir.

Xatırlatmaq artıqdır ki, Azərbaycanda tikinti şirkətlərinin ən müxtəlif formada vətəndaşları aldatması, tikinti oliqarxlarının minbir fırıldaqla "qaz vurub qazan doldurarkən" sadə insanların qəpiyi -qəpik üstə qoyub mənzil sahibi olmaq ümidi ilə yığdıqları pulları itirməsi artıq illərdən bəridir adət halını alıb.

Ən acınacaqlısı isə odur ki, bu anormal "ənənəyə" qarşı mübarizə aparıldığı bildirilsə, həqiqətən də, ötən illər ərzində xeyli oxşar fırıldağın üstü açılsa, həbslər aparılsa da sözügedən mövzu ölkə gündəmindən çıxmır: obrazlı desək, "həftə səkkiz, mən doqquz" hansısa tikinti şirkətinin vətəndaşları çeşidli fırıldaqlarla aldatdığı, "soyub soğana çevirdiyi" aydınlaşır.

Araşdırmalar sözügedən problemin arxasında daha ilginc nüansların olduğunu ortaya qoyur. Bir müddət öncə yerli media yazırdı ki, Bakıda tikintisi yarımçıq qalmış 200-dən çox bina var. Onların sonrakı aqibəti hamı üçün, xüsusilə tikinti başlayan zaman şirkətlərə müəyyən məbləğ ödəyən vətəndaşlardan ötrü maraqlıdır. Vəzifəli şəxslərin səhlənkarlığı və işbilməzliyi ucbatından yeni binalar inşa edən bəzi şirkətlər, MMC-lər tərəfindən mütəmadi şəkildə ciddi problemlər meydana çıxır. Bu problemlərdən ən geniş yayılanı: a) tikintinin söz verilən vaxtda yekunlaşdırılmaması; b) mənzillərin 2 və daha artıq şəxsə satılmasıdır.

Bir sözlə, kimsə şübhə eləmir ki, hər hansı "tikinti oliqarxı" vətəndaşların başına "mənzil corabı" hörürsə, arxayın olduğu ən mühüm xüsus arxasında hansısa yüksək vəzifəli şəxsin dəstəyini, gücünü hiss etməsidir.

O da ürəkağrıdan məqamlardan biridir ki, iqtisadçı Abbas Məmmədovun bir müddət əvvəl "bizimyol.info"ya açıqlamasında vurğuladığı kimi tikinti şirkətləri ilə bağlı hay-küylü halların yaranmasının 4 əsas səbəbi var:

1. Tikinti işini aparan şirkətlərin maddi bazasına nəzarətin və ya hər hansısa bir tələbin olmaması. Məsələn, Nizamnamə kapitalı 100 manatla qurulan bir "XXX MMC" bazar dəyəri milyonlarla ölçülən bir tikilini inşa etməyə başlayır. Yəni, sabah hər hansısa bir problem yarandıqda, bu problemləri həll etmək üçün həmin şirkətin dövlət tərəfindən müsadirə ediləcək heç bir maddi varlığı olmur.

2. Qanunvericilikdə olan boşluqlar; tikilən binanın layihəsi



təsdiqləndiyi zaman tikinti müddətinə dair şirkətə hansısa tələbin qoyulmaması və tikinti prosesinin davamiyyətinə nəzarəti həyata keçirən hər hansısa bir qurumun və ya sanksiya tədbirinin tətbiq edilməməsi.

3. Tikintisinə başlanılan və ya tikilməkdə olan binada müştərilərə edilən satışların reyestrinin müvafiq dövlət qurumları tərəfindən aparılmaması. İlk növbədə belə bir reyestr işinin təşkil edilməməsi mənzillərin iki və ya daha artıq şəxsə satılması hallarına çox münbit şərait yaradır. Məsələn, belə deyək, 160 mənzillik bir binada 200 mənzilin satılıb-satılmayacağı artıq o şirkətin rəhbərinin vicdanına buraxılır.

4. Hesablaşmaların əsasən nəğd şəkildə həyata keçirilməsi. Bu həm vergidən yayınma hallarına, həm də satılan mənzilin dəyərinin az göstərilməsinə səbəb olur. Nəticədə məhkəmə mübahisəsi yaranarsa müştəriyə çox böyük maddi ziyan dəyir.

Elə yuxarıda sadalanan hallardan da görünür ki, Azərbaycanda bir çox "tikinti oliqarxları-nın" qanunlara meydan oxumasının, özlərini toxunulmaz sayıb at oynatmasının kifayət qədər dərin kökləri, ciddi səbəbləri var. Bu kökləri qurutmadan, bu səbəbləri aradan qaldırmadan vətəndaşların aldadılmasını önləmək nəinki çətindir, hətta mümkünsüzdür, xəyalpərvərlikdir. Sözügedən problemin həlli istiqamətində daha konkret, təsirli addımlara ehtiyac var - ilk növbədə isə tikinti oliqarxlarının məmurlarla gizli, ancaq kirli əlaqələrinə, sövdələşmələrinə son qoyulmalıdır!

***Toğrul Əliyev***

## 5.3.6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Azərbaycanın dünyaya inteqrasiyası sürətlənib

Arzu Nağıyev: "Azərbaycan dünyaya hərtərəfli inteqrasiya etmək üçün, bütün potensialını ortaya qoyaraq ondan istifadə edir".

***Azərbaycanın günü-gündən güclənməsi, qüdrətli dövlətə çevrilməsi onun regionda siyasi çəkisini də artırır. Artıq dünya Azərbaycan dövləti ilə hesablaşır, regionda sözün əsl mənasında söz sahibinə çevrilir. Azərbaycanın digər dövlətlərə qarşı yürütdüyü siyasət Azərbaycanın maraqlarına xidmət etməklə yanaşı, dostluq prinsiplərinə dayanır. Dövlətimizin beynəlxalq təşkilatlarla münasibəti də inkişaf etməkdədir. Bəs görəsən bu il dövlətimizin siyasətində hansı dəyişikliklər gözlənilir?***



Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Arzu Nağıyev deyir ki, Azərbaycan uzaqgörən, ali siyasi rəhbərinin timsalında dünya birliyinə inteqrasiya edə bilib. Onun sözlərinə görə, Azərbaycanı güclü dövlət kimi istər Avropada, istər regionda, istərsə də dünyada tanıyaraq qəbul edirlər. Azərbaycan dünyaya hərtərəfli inteqrasiya etmək üçün, bütün potensialını ortaya qoyaraq ondan istifadə edir. Deputat deyir ki, dövlətimiz regionda söz sahibinə çevrilərək siyasi məqamları diktə edir.

Deputat bildirir ki, 44 günlük müharibədən, Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra regionda siyasi və coğrafi vəziyyət dəyişib. Ölkəmiz bu reallıqdan istifadə edərək Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilməkdədir. Deputatın sözlərinə görə, Azərbaycan böyük nəqliyyat habına, iqtisadi zonaya çevrilir: "Çindən Avropaya gedən istənilən yük Azərbaycan ərazisindən keçməklə öz alıcısına daha tez çatır. Azərbaycan Sakit okeandan Xəzər dənizi və Hind okeanı akvatoriyası üzrə vacib əhəmiyyətə malik yolda yerləşir. Ona görə də istər Zəngəzur dəhlizi, istərsə də Əlâtdə azad iqtisadi zonanın yaradılması çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan aparıcı dövlət kimi öz sözünü deyir, öz fikrini bildirir. Bu təkcə iqtisadi və yaxud hər hansı logistika və enerji sahəsində deyil, təhlükəsizlik baxımından, siyasi, mənəvi, mədəni cəhətlərdən bütün sahələrdə öz təsdiqini tapır".

Onun sözlərinə görə, artıq dünyada Azərbaycanın tərəfdaşları artmaqdadır: "Azərbaycan dövləti günü-gündən güclənir, regionda güc mərkəzinə çevrilir. Bu isə Azərbaycanla siyasi, iqtisadi və hərbi cəhətdən tərəfdaş olmaq istəyən dövlətlərin sayını günü-gündən artırır. Azərbaycan dünyaya hərtərəfli inteqrasiya etmək üçün, bütün potensialını ortaya qoyaraq ondan istifadə edir".

Deputat onu bildirir ki, dövlət başçısının yürütdüyü uğurlu siyasət Azərbaycanı inkişafa aparır. Bu, dünyaya inteqrasiya prosesini daha da sürətləndirir.

Həmsöhbətimiz deyir ki, regionda reallıq yaradan Azərbaycan beynəlxalq təşkilatlarla da əməkdaşlığı davam etdirir. Amma dövlətimizə münasibətdə ikili standartların olması bəzi problemlərin vaxtında həll olunmasına, bölgədə sülhün, sabitliyin təmin olunmasına müəyyən qədər mane olur: " Əgər zamanında beynəlxalq təşkilatlar Qarabağ probleminə daha ciddi yanaşsaydılar bu qədər zaman itkisi olmazdı.28 il işğal dövründə BMT-nin qərarları icra olunmadı. Nəhayət Azərbaycan öz gücü hesabına torpaqlarını işğaldan azad etdi. Təəssüf ki, hələ də işğaldan azad edilmiş torpaqlarımızda mədəni və tarixi irsimizə vurulan zərərin beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməsi aparılmır. Bununla belə Azərbaycan dəfələrlə beynəlxalq təşkilatlara məktub göndərərək dəymiş zərərin qiymətləndirilməsini tələb edib".

A.Nağıyev ölkəmizin uğurlarının bu il də davam edəcəyini söyləyib. Bildirib ki, dövlətimizi gələcəkdə daha böyük uğurlar gözləyir.

Qeyd edək ki, müstəqillik dövründən başlayaraq, Azərbaycanın suveren dövlət kimi qarşısına qoyduğu məsələlərdən biri də, dünya birliyinə inteqrasiya idi. Müstəqilliyimiz tanındıqdan sonra biz bu istiqamətdə addımlar atdıq. Prezident İlham Əliyev də deyib ki, Azərbaycan dünya birliyinə inteqrasiyanı daim əsas vəzifələrdən biri kimi tutub. Ölkəmizin dünya birliyinə inteqrasiyası dövlətimiz üçün, onun inkişafı üçün, müasir dövrün tələblərinə uyğun texnologiya, elm-təhsil əldə etmək üçün vacib addımlardır: "Bu, təkcə ölkəmiz üçün deyil, eləcə də dünya üçün önəm kəsb edir. çünki dünya dövlətlərinin də Azərbaycandan əldə edəcəyi, öyrənəcəyi çox şeylər var. Azərbaycan inkişaf etməkdə olan dövlətdir və yeraltı, yerüstü sərvətlərlə zəngin ölkədir. Daima güclənərək, inkişaf edərək bir çox dövlətləri geridə qoyan Azərbaycan artıq güclü orduya da sahibdir. Elə təkcə 44 günlük Vətən Müharibəsi Azərbaycanın hansı gücə sahib olmasını bir daha dünya dövlətlərinə göstərdir".

Xatırladaq ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra dünya birliyinə inteqrasiya yolunu seçib. Nəticədə ötən müddət ərzində Azərbaycanın BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da möhkəmlənib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# "Medianın dövlətlər arasında qarşıdurma yaratması yolverilməzdir" - Mətbuat Şurası

***Mətbuat Şurası "Charlie Hebdo" dərgisi ilə bağlı bəyanat yayıb. Şuradan "Unikal"a verilən xəbərə görə, bəyanatda deyilir:***

"Medianın xalqlar, dövlətlər arasında qarşıdurma, nifaq yaratması yolverilməzdir. Bu, jurnalist peşəsinə həssas yanaşmanın, etik prinsiplərə sadiqliyin başlıca meyarıdır. Belə məsələlərdəki həssaslıq, həmçinin, bəşəri dəyərlərin qorunması baxımından da müstəsna əhəmiyyət daşıyan ictimai missiyadır. Təəssüf ki, yaşadığımız dünyada qeyd etdiyimiz məqamları nəzərə almayan, özünün qızışdırıcı mövqeyi ilə seçilən, lokal maraq və mənafelərin əsiri olan, jurnalistikanı siyasi alətə çevirən media orqanları var. Onlardan biri də Fransanın "Charlie Hebdo" satirik dərgisidir.

"Charlie Hebdo"nun 2023-cü ildəki ilk sayında yayımlanmış "Pantürkizm yenə erməni meyitləri üzərində möhkəmlənmək istəyir" sərlövhəli yazıda yaşadığımız Cənubi Qafqaz regionundakı gərginliyi artırmaq, Azərbaycana və Türkiyəyə münasibətdə mənfi beynəlxalq ictimai rəy formalaşdırmaq istəkləri, aşkar şəkildə, özünü göstərməkdədir. Nəşrin yanaşması, eyni zamanda, bölgədə sülhün bərqərar olması naminə həyata keçirilən fəaliyyəti heçə saymaqdır.

"Charlie Hebdo" jurnalının Fransanın ermənipərəst dairələrinin mövqeyini əsas tutması, bu dairələrin regiondakı münaqişə ocağından yeni müharibə mühiti formalaşdırmaq istəklərinin ifadəçisi qismində çıxış etməsi, onun seçdiyi üslubdan da aydın görünməkdədir.

Ümumən İslam dünyasına münasibətdə əvvəllər də qərəzli, təfriqəçi, həqarət dolu baxışları ilə seçilmiş "Charlie Hebdo"nun qeyri-peşəkar təqdimat tərzini davam etdirməsi təəssüf doğurmaqdadır. İndiki halda nəşrin reallıqları və həqiqətləri nəzərə almaması, manipulyativ mahiyyət daşıyan dəstxətti peşəkar jurnalistika prinsiplərinə meydan oxumaqdır.

O da təəssüf doğurur ki, ali dəyərləri təbliğ və təlqin etdiyini bildirən Fransada dərginin satira adı altında söz və ifadə azadlığından aşkar sui-istifadə cəhdlərinə qarşı zəruri ictimai reaksiya yoxdur, qanuni ölçü tədbiri görülmür.

Azərbaycan Mətbuat Şurası "Charlie Hebdo" satirik jurnalının təfriqəçi mövqeyini qətiyyətlə pisləyir. Şura Fransa hakimiyyətini, cəmiyyətini, həmçinin, bütövlükdə, Avropanın mütərəqqi ictimaiyyətini bu dərginin həm mənəvi, həm də hüquqi baxımdan yolverilməz sayılan fəaliyyət tərzinə biganə qalmamağa, belə meyillərə qarşı yerli qanunlarla və beynəlxalq hüquq normaları ilə müəyyənləşmiş qaydada tədbirlər həyata keçirilməsinə baxmağa çağırır".



# Bayramdan sonra işə necə adaptasiya olaq?

***Məzuniyyəti, xüsusilə də bayram tətillərini hər kəs çox sevir. İşləyən insanlar bayram tətillərində rahat istirahət edir, qısa müddət də olsa iş stresindən uzaq qalırlar.***

Bəs bayram tətilindən qayıtdıqdan sonra işə adaptasiya prosesində nəyə diqqət etməliyik?

Psixoloq Elnur RüstəmovBakıvaxtı.az-a açıqlamasında bildirib ki, bayram, qısa tətil və məzuniyyətlərdən sonra bir qisim insan işə adaptasiya olmaqda müəyyən problemlər yaşayırlar. Onun sözlərinə görə, burda əsas diqqət yetiriləcək məqam insanın bayramı necə keçirdiyidir: “Bunlar doğru formada gedərsə, insanın işə adaptasiya prosesi uzun zaman almır. Bu, həm də insanın nə qədər sevdiyi işlə məşğul olmasından asılıdır. Çünki bir insan sevdiyi işlə məşğul olursa, məzuniyyət və ya ezamiyyətdən sonra işə adaptasiya prosesində xüsusi bir çətinlik yaşamır”.

Psixoloq qeyd edib ki, tətildən sonra işə adaptasiyada çətinlik yaşayan insanlara gəldikdə isə 1-2 gün çətinlik yaşaya bilərlər: “Yarımçıq qalan işlər tamamlandıqdan sonra gərginlik geridə qalır və insan rahat bir şəkildə işə fokslana bilir. Ona görə, ilk növbədə təcili görüləcək işləri həyata keçirməyə, kollektivdə pozitiv ab-hava yaratmağa diqqət yetirmək lazımdır”.

E.Rüstəmov hesab edir ki, bunlar olarsa, adaptasiya prosesində xüsusi bir çətinlik olmaz: “Ancaq bir daha qeyd edirəm ki, məzuniyyətin və ya bayramın təşkili məsələsi işə adaptasiya prosesinə çox böyük təsir göstərir. Eyni zamanda, insanın sevdiyi işlə məşğul olması da insanın tez bir zamanda adaptasiya olmasına təsir edir”.

***Aytac Aslan***

# Koronavirusun yeni ştamı artıq 29 ölkədə aşkarlanıb

***Koronavirusun Omicron XBB.1.5 ştamı yayılmaqda davam edir.***

“Unikal” “Politico”ya istinadən xəbər verir ki, ştam artıq 29 ölkədə aşkarlanıb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) COVID-19 üzrə texniki mütəxəssisi Mariya Van Kerkhove vəziyyətdən narahat olduqlarını bildirib: “Biz onun artım tempindən narahatıq. Xüsusilə də Avropa və ABŞ-nin şimal-şərqində. Orada yeni ştam mövcud olan altvariantları tez bir zamanda əvəzləyib”.

Omicron XBB.1.5 ştamının digər mövcud altvariantlardan daha ağır olub-olmaması bəlli deyil.

Van Kerkhovenin sözlərinə görə, ÜST yeni ştamın ciddiliyi ilə bağlı analiz üzərində işləyir.

# "102"yə zəng edib söyüş söydü, həbs olundu

***Gəncədə polis bölməsinin qarşısında səs-küy salan şəxs həbs edilib.***

”Unikal”ın əldə etdiyi məlumata görə, 16 dekabr 2022-ci il tarixdə Gəncə şəhəri ərazisində metal axtaran zaman polis əməkdaşları Elxan Mirzəyevə (ad-soyad şərtidir) yaxınlaşıblar və onun nə işlə məşğul olmasını soruşublar. O, polis əməkdaşlarına işsiz olduğu üçün zibilliklərdə metal yığıb özünü saxladığını deyib. Bundan sonra polislər ondan şübhələniblər və Elxana bəzi suallar veriblər. Telefon nömrəsini götürdükdən sonra onu sərbəst buraxıblar. Elxan evə gedib, polislərin ona olan münasibətindən əsəbiləşib və Daxili İşlər Nazirliyinin ”102” xidmətinə zəng edərək dövlətdən və polislərdən narazı olduğunu bildirib, söyüş söyüb.

Həmçinin, E.Mirzəyev 3 yanvar 2023-cü il tarixdə saat 11:30 radələrində 1-ci Polis Şöbəsinin qarşısında səs-küy salaraq polisin qanuni tələblərinə əməl etməyib.

Onun barəsində İnzibati Xətalar Məcəlləsinin 510-cu (Xırda xuliqanlıq) və 535.1-ci (Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) maddələri ilə protokol tərtib olunub. Gəncə Şəhər Məhkəməsinin qərarı ilə o, 15 gün müddətinə inzibati qaydada həbs edilib.

# Onun ürəyi Vətənla bir döyünürdü

***Odlar yurdu doğma Azərbaycanımızın zəfər tarixinin yazılmasında Astaranın qəhrəman oğlu Şəhnin Novruzov sözün əsl mənasında yaşına uyuşmayan bir şücaət göstərib. Ömrünün 22-ci baharında 30 il əsarətdə qalan Vətən torpaqlarının azadlığı uğrunda canından keçməklə şəhid olmağı bacarıb. Bu zirvəyə ucalmaqla, həm də qısa həyat yolu torpağına, el-obasına sonsuz məhəbbət mücəssəməsinə dönüb. İndi budur Şəhnin təkcə bir ailənin deyil, bütün Azərbaycan xalqının fəxridir.***



Uşaq yaşlarında Vətənin müqəddəsliyini başa düşən, ona ürəkdən sevdalanan Şəhninin ailəsi doğma Səncərədi kəndindən 2007-ci ildə Bakının Zirə qəsəbəsinə köçür. Burada yetkinlik yaşına çatıb, müstəqil həyata qədəm qoyanda tanıyanlar, bilənlər onda olan əxlaqa, bacarığa, xalqı, Vətəni üçün döyünən təmiz ürəyinə heyran qalırlar. Şəhnini isə ən çox narahat edən yağı düşmənin Azərbaycanımızın əzəli bir parçası olan Qarabağın işğalı idi. Odur ki, 9 aprel 2016-cı ildə müddətli həqiqi hərbi xidmətə böyük həvəslə yollanır. Və cəbhə bölgəsində Vətənin keşiyində durmağı özünə şərəf bilir. Nəyin bahasına olursa-olsun düşmənə əsir düşən torpaqlarımızın azadlığı onun əsas amalına dönür. Və buna çatmaq üçün içindəki Vətən, torpaq sevgisinə güvənib müharibə meydanında dığalarla sona qədər vuruşub qisas alacağına and içir.

Əsgər Şəhnin layiqli, sədaqətli bir övlad olaraq Vətən qarşısında borcunu şərəflə yerinə yetirir. Hər qarış torpağını, daşını canından əziz tutmaqla onu göz-bəbəyi kimi qoruyur. Komandirlərin tapşırıqlarına birinci gedir, mərdliyi, cəsurluğu, ağıllı davranışı həmişə onu üzüağ edir. Ən əsası isə torpaqlarımızı düşmən işğalından azad etməyə hazır durur, həmin günü qələbəyə olan inamla gözləyir və sonrakı həyatını bağlandığı yurdunun qalib əsgəri olmaqla el-obada başıuca yaşamaq istəyir...

Şəhnin nümunəvi əsgər kimi ailəsinə dönsə də, düşməndən alacağı öcü unutmur. 2020-ci ildə Vətən savaşı başlayanda könüllü olaraq əlinə silah götürür. Torpaq uğrunda can qoyan, qəhrəmanlıqla döyüşən Vətən övladlarının ən öndə gedəni olur. Yağıya qan uyduran igidin adı dillərdən düşmür. Çox odan-alovdan keçir, qırdığı dığaların sayı bilinmir. 20 oktyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmaqla, torpağa tökdüyü qızı qan möhtəşəm zəfərimizi göstərir.

Ürəklərdə saflıq dünyasına dönən qəhrəman əsgər Şəhnin Şahlar oğlu Novruzov Astara rayonunda doğma kəndi Səncərədidə uyuyur. Onun baş qoyduğu torpaq astaralılar üçün çox müqəddəsdir. Dövləti öz qəhrəman oğlunun ehtiramını daimi uca tutmaqdan ötrü onu ölümündən sonra “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medallara layiq görüb.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Tanınmış vəkilin qadınlarla bağlı fikri tənqid olundu

***Vəkillər Kollegiyasının üzvü, tanınmış hüquqşünas Əkrəm Həsənovun Azərbaycan ailələri ilə bağlı paylaşımı müzakirələrə səbəb olub.***



Bu barədə paylaşım edən vəkil bildirib ki, ailədə kişinin sözü həlledici olmalıdır: ”Gənc bir ailə yeni doğulan uşağa ad qoymaq üstündə mübahisə edib. Belə ki, ata uşağa öz anasının adını vermək istəyib. Bununla razılaşmayan qadın evi tərk edib. Ailə Məcəlləsinin 53.4-cü maddəsinə əsasən valideynlər arasında uşağın ad və soyadına münasibətdə razılıq olmadıqda yaranan fikir ayrılığı yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanı tərəfindən həll olunur. Təbii, o da həll edə bilməsə, işə məhkəmə baxacaq. Mənə həmişə maraqlı idi ki, belə işlərə baxan dövlət orqanı məsələni necə həll edəcək. Axı hansı meyarı rəhbər tutub, ad qoyacaq? Kimin sözü onun üçün daha keçərli olacaq? Dədə Qorqud deyil ki, istədiyi adı qoyub tərəfləri razı salsın!

Əslində, bu problem bir daha göstərir ki, ailədə heç vaxt bərabərlik ola bilməz. Bir nəfərin sözü həlledici olmalıdır. Təbii ki, ərin! Bu, o demək deyil ki, müzakirə olmamalıdır. Olmalıdır. Amma son söz ərdə olmalıdır. İndi görün, nə günə qalmışıq ki, kişi uşağının adını belə qoya bilmir. Kimdir günahkar? Günahkar kişilərdir. Çünki cılızlaşaraq ailədə iqtidarı əldən verə-verə gedirlər. Başa düşmürlər ki, qadının nə deməsi əhəmiyyətli deyil. Qadın əmələ qiymət verir. Əməldə isə kişi qətiyyətli və sözübütöv olmalıdır. Qadın, onun sözü ilə oturub duran kişidən əvvəl-axır soyuyur. Kişinin var-dövləti də kar etmir. Nəticədə onun yerini, hətta adını da yaza bilməyən hansısa enlikürək idman təlimçisi asanlıqla tutur”.

Vəkilin paylaşımı ilə bağlı fikir ayrılıqları yaranıb. Əksər kişi istifadəçilər onun fikirləri ilə razı olduqlarını bildirsələr də, hüquq müdafiəçisi kimi onun paylaşımı rəzalət adlandıranlar da olub.

# Qarabağın nadir üzüm sortları yenidən çoxaldılır



***Qarabağın nadir üzüm sortlarından olan Qara Ikeni Azərbaycanın ən qiymətli qara giləli texniki üzüm sortudur.***

Kənd Təsərrüfatı Nazirliyindən "Unikal"a verilən məlumata görə, Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunda (ÜŞETİ) milli brendlərin istehsalı və ixrac potensialının yüksəldilməsi məqsədilə itmək təhlükəsi olan yerli üzüm sortları sürətli üsullarla artırılır. İstehsalçıların keyfiyyətli əkin materialları ilə təmin edilməsi üçün yerli üzüm sortları aşkarlanıb toplanır.

ÜŞETİ yerli üzüm sortlarının genetik müxtəlifliyini müasir üsullarla öyrənmək üçün Almaniyanın Geilweilerhof Üzümçülük İnstitutu ilə elmi əməkdaşlıq barədə müqavilə imzalayıb. Müqaviləyə əsasən 28 aprel 2022-ci il tarixdə Qara Ikeni üzüm sortunun çubuqları molekulyar-genetik, ampelo və fenotipik deskriptorlarla analiz olunması üçün Almaniyanın Geilweilerhof Üzümçülük İnstitutuna göndərilib. Analizlərin nəticələrinə əsasən sortun genetik cəhətdən təmiz profil olduğu təsdiqlənib. Azərbaycanın qiymətli yerli üzüm sortlarının Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatının (OIV) müasir protokol və üsullarına görə öyrənilib rəqəmsal təsvir edilməsi, üzüm sortlarının təyinedici əsas morfogenetik əlamətlərinin ayrı-ayrılıqda hər bir sort üçün tərtib olunması və Beynəlxalq Sort Kataloquna (VİVC) yerləşdirməsi onların milli sortlarımız olduğunu sübut etməyə imkan verir. Yerli üzüm sortlarının rəqəmsal təsvir edilməsində yaşıl zoğ, cavan yarpaq, formalaşmış yarpaq, salxım, gilə və toxumların əsas diaqnostik əlamətləri, məhsullarının enokarpoloji və enokimyəvi göstəriciləri mühim rol oynayır.

Sortun ampelodeskriptor əlamətləri tədqiqatlar və araşdırmalar nəticəsində öyrənilmiş morofoloji, aqrobioloji, təsərrüfat-texnoloji xüsusiyyətləri əsasında beynəlxalq miqyasda qəbul edilmiş metodika və protokollar üzrə aparılaraq təsvir olunub. Sort Qara dəniz hövzəsi sortları (convar pontica Negr.) qrupuna mənsubdur. Yarpaqları iri, nisbətən uzunsov, 5 dilimli olub, tünd-yaşıl rəngdədir. Ayasının səthi torvari qırışıqlı olub, qıfşəkilli-novlu, novşəkilli, yaxud qıfşəkilli formadadır. Ayanın yuxarı kəsikləri dərin və ya orta dərinlikdə olub, açıq iti dibli liraşəkilli, bağlı yumurtavari, yaxud dar ellipsvari və ya dəyirmi dibli, enli ellipsvari formadadır. Aşağı kəsikləri orta dərinlikdə olub, açıq, girintili bucaqşəkilli yaxud bağlı, iti dibli bəzən də dəyirmi dibli enli-ellipsvaridir.

Qara Ikeninin tənəklərinə Gəncə, Göy-göl rayonlarında, Qarabağ ərazisində (xüsusən Füzuli rayonunda) köhnə üzüm bağlarında, xiyabanlarda rast gəlinir. Sort keçmiş Ümumittifaq Üzümçülük və Şərabçılıq "Maqaraç" Elmi-Tədqiqat İnstitutunun Mərkəzi Asiya filialında geniş tədqiq olunmuş, keyfiyyətli desert şərabların hazırlanması üçün geniş istehsalata tövsiyə olunub. Qara Ikeni Özbəkistan Respublikasının sort standartlarına daxil edilib. Sort hazırda Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat institutunun Abşeron kolleksiya bağında əkilib becərilir.

# "AzərEnerji" 2022-ci ilin hesabatını verdi

***Arxada qalan 2022-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə "AzərEnerji"nin 9 enerji obyekti tikilərək istismara verilib, 2 enerji obyektinin təməli qoyulub, 6 enerji obyektinin tikintisinə baxış keçirilib.***

"Unikal" xəbər verir ki, ötən ilin ilk ayında dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyası yenidənqurmadan sonra istismara verilib. Fevral ayının 11-də isə Prezident İlham Əliyev yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyasının və 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının açılışında iştirak edib.

14 fevral tarixində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə "AzərEnerji" tərəfindən Ağdam rayonunda iki yerdə yeni tikilən "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının, o cümlədən "Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi"nin açılışı olub. Elə həmin gün yenidən qurulan 110 kilovoltluq "Ağcabədi" yarımstansiyası da istismara verilib.

2022-ci ilin 26 may tarixində isə Azərbaycan-Türkiyə-Avropa



ölkələrarası beynəlxalq enerji layihəsi çərçivəsində 330 kV-luq "Cəbrayıl" Enerji Qovşağının təməli qoyulub. Bundan 4 ay sonra ölkə rəhbəri 330 kV-luq "Cəbrayıl" Qovşaq Yarımstansiyasında tikintinin gedişatı ilə tanış olub.

26 iyun 2022 tarixində 4,4 meqavat gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası yenidən qurulduqdan sonra Kəlbəcər rayonunda ilk istehsal obyekti olaraq istismara verilib. "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasından başqa Cənab Prezident Kəlbəcərdə 5 yerdə yenidən qurulan 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik su elektrik stansiyalarında, o cümlədən Laçın rayonunda tikilən "Qorçu" yarımstansiyası və ikidövrəli 110 kV-luq "Kəlbəcər-Laçın" ötürmə xəttinin inşası ilə tanış olub.

Ötən ilin 21 sentyabr tarixində Cənab Prezidentin iştirakı ilə "Laçın" Qovşaq Yarımstansiyasının təməli qoyulub. Qeyd edək ki, istər Kəlbəcərdə 5 yerdə tikilən kiçik su elektrik stansiyalarında, istərsə də Laçında iki yerdə tikilən 110 kilovoltluq yarımstansiyalarda işlər başa çatmaq üzrədir.

Prezident İlham Əliyev ötən ilin dekabrında "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su elektrik stansiyaları silsiləsinin açılışında iştirak edib.

Sonda onu da qeyd edək ki, Prezident İlham Əliyevin 25 oktyabr 2022-ci ildə imzaladığı sərəncama uyğun olaraq Mingəçevir şəhərində "AzərEnerji" tərəfindən əlavə 1280 meqavat istehsal gücündə yeni elektrik stansiyası yaradılır. 1280 meqavat gücündə tikiləcək bu generasiya mənbəyi müstəqillik dövründə tikiləcək ən böyük elektrik stansiya olacaq.



# Baş prokuror Sabirabad, Saatlı, İmişli və Cəbrayıl sakinlərini qəbul edəcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il yanvarın 12-də saat 10:00-da Sabirabad rayon prokurorluğunun inzibati binasında Sabirabad, Saatlı, İmişli və Cəbrayıl rayon sakinlərinin qəbulunu keçirəcək.***

Bu barədə "Unikal"a Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Sabirabad rayonuna gəlmələrinin təşkili rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, telegram, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

# Tətildə milli parkları 5 mindən çox turist ziyarət edib

***Bayram tətili günlərində havaların əlverişli keçməsi ölkənin müxtəlif bölgələrində yerləşən milli parklarda canlanmaya səbəb olub.***

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev "Unikal"a bildirib ki, bu günlərdə Azərbaycanın milli parklarına 5011 turist səfər edib və ən çox turist qəbul edən milli parklarımız Göygöl, Abşeron və Ağgöl olub.

"Ölkəmizdə 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı var. Milli parklarımız Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə rəngarəng landşaft komplekslərini əhatə edir".

Xatırladaq ki, bayram tətili günlərində milli parklarda "açıq qapı" günü elan edilib və ziyarətçilər ödənişdən azad olunub.

# Bayramda günlərində 170 yanğın, 37 nəfər xilas edilib

***Fövqəladə Hallar Nazirliyi vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, həyat təminatı və digər mühüm əhəmiyyətli obyektlərdə baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ aradan qaldırılması işinin təşkili məqsədilə 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışıb.***

FHN-dən "Unikal"a verilən xəbərə görə, 112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən bayramla əlaqədar qeyri-iş günləri ərzində ümumilikdə 170 yanğına çıxış, 26 köməksiz vəziyyətdə qalma, 3 nəqliyyat qəzası və 2 partlayış faktı üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib. Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, partlayışların nəticələrinin çevik aradan qaldırılması və insanların həyatının xilas olunması təmin edilib.

Ümumilikdə, FHN-in qüvvələri tərəfindən bayram günləri ərzində 9-u azyaşlı olmaqla 37 nəfər xilas edilib, 5 nəfər xəsarət alıb. Yanğın zamanı 1 nəfər tüstüdən zəhərlənib. Həmçinin, çoxmərtəbəli yaşayış binasında baş verən partlayış hadisəsi zamanı 1 nəfərin və nəqliyyat qəzaları zamanı aşkar olunan 2 nəfərin meyitləri aidiyyəti üzrə təhvil verilib.

# Ərdoğan Putinlə telefonla danışdı

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya lideri Vladimir Putin arasında telefon danışığı olub.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, tərəflər Rusiya-Ukrayna müharibəsini və Suriyanı da müzakirə ediblər.

# "Qarabağa beynəlxalq missiya göndərilməlidir" - Paşinyan

***"Dağlıq Qarabağa və Laçın dəhlizinə beynəlxalq faktaraşdırıcı missiya göndərilməlidir".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

Paşinyan qeyd edib ki, bu istiqamətdə daim səy göstərilməlidir. Ermənistan Nazirlər Kabinetinin rəhbərinin sözlərinə görə, İrəvan beynəlxalq ictimaiyyətdən, o cümlədən sülhməramlıları Qarabağda yerləşdirilən Rusiya Federasiyasının BMT Təhlükəsizlik Şurasının daimi üzvündən daha əsaslı addımlar gözləyir.

***Ağarza Elçinoğlu***

# Tayvan Rusiya və Belarusa sanksiya tətbiq etdi

***Tayvanın İqtisadiyyat Nazirliyi Ukraynaya genişmiqyaslı müdaxilədən sonra iki ölkənin yüksək texnologiyalı Tayvan məhsullarından hərbi məqsədlər üçün istifadəsinin qarşısını almaq üçün Rusiya və Belarusa qarşı sanksiyaların genişləndirildiyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Focus Taiwan" məlumat yayıb.

Bildirilir ki, Rusiya Federasiyası və Belarusa ixracı qadağan edilən kimyəvi məhsullar arasında risin, konotoksin, botulinum toksini, azot triflorid, ammonium nitrat, tributilfosfat və nitrat turşusu var.

Genişləndirilmiş sanksiyalar maşınqayırma məhsullarına da şamil olunub.

# "Ukraynalı qaçqınların sayı təxminən 8 milyona çatıb" - BMT

***Rusiyaya genişmiqyaslı işğalın başlamasından sonra Avropa ölkələrinə gedən ukraynalıların sayı 7 milyon 915 min 287 nəfərə çatır.***

"Unikal" xəbər verir ki, bu barədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) idarəsi məlumat yayıb.

Bildirilir ki, fevralın 24-dən bu yana 17 milyondan çox insan Ukraynanı tərk edərək Avropa ölkələrinə gedib, 9,1 milyondan çox insan isə Ukraynaya qayıdıb.

***Gülayə***

# Rusiyada istehsalat binası yandı - 2 ölü

***Sankt-Peterburqun Puşkinski rayonunda istehsalat binasında yanğın baş verib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Fövqəladə Hallar Nazirliyinin şəhər baş idarəsinin mətbuat xidməti məlumat dərc edib.

Hadisə nəticəsində iki nəfər ölüb. Yanğın 420 kvadratmetr ərazini əhatə edib.

Hazırda yanğının qarşısı alınıb.

***Ağarza***

# "Merkel və Olland beynəlxalq ictimaiyyəti aldadıblar" - Volodin

***Fransanın keçmiş prezidenti Fransua Olland və Almaniyanın keçmiş kansleri Angela Merkel Minsk razılaşmalarına əməl etməyərək Kiyevə Donbasa qarşı hərbi əməliyyatlara hazırlaşmaq imkanı veriblər və bununla da Ukraynadakı münaqişənin səbəbkarlarına çevriliblər.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin öz "Telegram" kanalında yazıb.



O qeyd edib ki, Merkel və Olland "Minsk razılaşmalarını sabotaj etməklə" və onlardan "Kiyev rejimini hərbiləşdirmək üçün" istifadə etməklə beynəlxalq ictimaiyyəti aldadıblar.

"Məhz Merkel və Olland Minsk razılaşmalarını sabotaj edərək dünya birliyinin başa düşdüyü kimi Ukraynadakı münaqişənin səbəbkarına çevriliblər".

Bundan əvvəl Merkel "Die Zeit" qəzetinə müsahibəsində Minsk razılaşmalarının "Ukraynaya vaxt vermək cəhdi" olduğunu bildirmişdi. Rusiya prezidenti Vladimir Putin Almaniyanın keçmiş kanslerinin bu açıqlamalarını gözlənilməz və məyusedici adlandırıb.

***Gülayə Mecid***

# Sentyabr döyüşlərinə görə 11 erməni hərbçiyə cinayət işi açılıb

***Sentyabr qarşıdurması zamanı Ermənistan silahlı qüvvələri hərbçilərinin əməlləri ilə bağlı cinayət işlərində 11 təqsirləndirilən şəxs var.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Kommunist Partiyasının rəhbəri Arqişti Kyaramyan bildirib. O, təqsirləndirilənlərin əksəriyyətinin saxlanıldığını qeyd edib: "İşlərdən 4-ü artıq məhkəməyə göndərilib. Təqsirləndirilən şəxslər orta rütbəli zabitlər və hərbçilərdir".

Kyaramyanın sözlərinə görə, sentyabr qarşıdurması nəticəsində Ermənistan tərəfdən 600-ə yaxın yaralı var.

***Ağarza Elçinoğlu***



# Rusiya hələ də Krım körpüsünü təmir edir

***İnternetdə təxminən 3 ay əvvəl partlayış baş verən Krım körpüsünün yeni peyk şəkli ortaya çıxıb. Fotoya görə, körpüdə təmir işləri hələ də davam edir.***

"Unikal" xəbər verir ki, bu barədə "Osint" şirkətinin analitiki Bredi Efrik şəkli öz "Twitter" hesabında yerləşdirib.

"Krım körpüsü təxminən üç ay əvvəl zədələnib və peyk görüntüləri işçilərin hələ də zədələri təmir etdiyini göstərir", - Efrik qeyd edib.



Bildirək ki, oktyabrın 8-də Krım körpüsündə partlayış baş verib. Hadisə yerində yanğın başlayıb. Daha sonra Rusiya Milli Antiterror Komitəsi Krım körpüsündə yük maşınının partladıldığını açıqlayıb.

Oktyabrın 9-da Rusiya prezidenti Vladimir Putin Ukrayna xüsusi xidmət orqanlarını Krım körpüsünü dağıtmaqda ittiham edib.

***Gülayə Mecid***

# SEPAH-ın komandiri Tehranda öldürüldü

***İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) hərbçisi Tehranda öldürülüb.***

"Unikal" İran KİV-lərinə istinadən xəbər verir ki, Qasim Fətullahi çərşənbə axşamı gecə qətl edilib.

O, SEPAH-ın Məhəmməd Rəsulullah Qüvvələri Korpusunun üzvü, SEPAH-ın Bəsic Könüllü Qüvvələrinin komandiri idi.

Məlumata görə, hücum Tehranda hərbçinin yaşayış binasının qarşısında baş verib.





# Rusiya müharibədə 452 uşağı qətlə yetirib

***Ukraynada Rusiya Federasiyasının genişmiqyaslı silahlı hücumu nəticəsində 452 uşaq həlak olub, 877 uşaq yaralanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Baş Prokurorluğunun mətbuat xidməti məlumat yayıb.

"Rusiya Federasiyasının genişmiqyaslı silahlı hücumu nəticəsində Ukraynada 1329-dan çox uşaq xəsarət alıb. 2023-cü il yanvarın 5-i səhər saatlarına olan məlumata görə, 452 uşaq qətlə yetirilib, 877 nəfər isə ağır yaralanıb", - məlumatda deyilir.

***Gülayə Mecid***

# Ramuş Ranoldonun keçmiş agenti ilə müqavilə imzaladı



***"Benfika"nın hücumçusu Qonsalu Ramuş Jorje Mendeşin agentliyi ilə müqavilə imzalayıb .***

Qol.az xəbər verir ki, bu barədə AS nəşri məlumat yayıb. Mendeşin ən məşhur müştərisi Kriştiano Ronaldo idi. Maraqlıdır ki, DÇ-2022-də iki oyunda Portuqaliyanın əsas komandasında Ronaldonu əvəzləyən məhz Ramuş olub. Həmin ərəfədə Mendeş agentliyi artıq Kriştianonun imic hüquqlarına sahib olmayıb. Bundan dərhal sonra agentlik 21 yaşlı oyunçu ilə müqavilə imzalayıb.

Xatırladaq ki, Ramuş DÇ-2022-nin 1/8 finalında Portuqaliya millisinin start heyətinə daxil olaraq Kriştiano Ronaldonu ehtiyatda qoyub. Futbolçu İsveçrə ilə görüşdə (6:1) üç qol vuraraq turnirin əsas gənc ulduzlarından birinə çevrilib. Ancaq o, 1/4 finalda Mərakeşlə görüşdə komandasına kömək edə bilməyib. Portuqaliya 0:1 hesabı ilə uduzaraq turnirlə vidalaşıb.

# 2022-ci ilin ən yaxşı qapıçısı

***Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) 2022-ci ilin ən yaxşı qapıçılarının adını açıqlayıb.***



Belçika millisinin və "Real"ın futbolçusu Tibo Kurtua (125 xal) ilin ən yaxşı qapıçısı seçilib. Emiliano Martines (Argentina, "Aston Villa") 110 xalla 2-ci, Yassin Bunu (Mərakeş, "Sevilya") 55 xalla 3-cü olub.

Qeyd edək ki, Kurtua ötən mövsüm Madrid klubu ilə İspaniya çempionu və Çempionlar Liqasının qalibi adına yiyələnib.

# "Zirə" onu da göndərdi



***Qış fasiləsində "Zirə"dən ayrılan futbolçuların sayı 3-ə çatıb.***

"Unikal" "sportinfo"ya istinadən məlumat verir ki, qəsəbə təmsilçisi Təmkin Xəlilzadə və Toni Qomesdən sonra Nemanya Andelkoviçlə vidalaşıb.

2021-ci ilin yanvarında 2,5 illik müqavilə imzalamış 25 yaşlı serbiyalı legionerin anlaşmasının müddəti mövsümün sonunda başa çatmalı olsa da, tərəflər qarşılıqlı razılıq əsasında əməkdaşlığı dayandırıblar. "Zirə" müdafiəçini düşərgədən göndərmək üçün əlavə xərcə düşməyib.

Qeyd edək ki, Andelkoviç Azərbaycana gəlməmişdən əvvəl ölkəsində "Radnik", "Metalaç", "Yavor", "Pivara" və "Zlatibor"un şərəfini qoruyub.

# Boks üzrə U-22-lərin Avropa çempionatına Azərbaycan ev sahibliyi edəcək

***22 yaşadək kişi və qadın boksçular arasında Avropa çempionatı Azərbaycanda keçiriləcək.***

Boks Federasiyasından verilən məlumata görə, bununla bağlı qərarı Avropa Boks Konfederasiyası İtaliyanın Assizi şəhərində açıqlayıb.

Səsvermənin nəticəsinə əsasən, Azərbaycan digər rəqibləri Bolqarıstan və Rumıniyanı qabaqlayaraq yarışa ev sahibliyi hüququ qazanıb. Bakıda keçiriləcək Avropa çempionatı oktyabr-noyabr ayına təsadüf edəcək. Qitənin ən güclülərinin bir araya gələcəyi və Azərbaycanın ilk dəfə qəbul edəcəyi yarışın dəqiq tarixi bu günlərdə dəqiqləşəcək.

Avropa Boks Konfederasiyası, həmçinin digər qitə çempionatlarının da ev sahiblərini açıqlayıb. Yeniyetmələr arasında Avropa birinciliyi iyulda Rumıniyada, məktəblilər arasında yarış avqustda Sloveniyada olacaq.

Qeyd edək ki, Azərbaycan millisi U-22-lərin son Avropa çempionatında 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıb.

# "Neftçi" geriləd, "Qarabağ" mövqeyini qorudu - ilin ilk reytinqi



***Avropanın top komandalarının 2023-cü il üçün ilk reytinqi açıqlanıb.***

Apasport.az saytının məlumatına görə, cədvəldə qitənin 438 ən güclü klubu yer alıb.

Azərbaycanın üç komandası siyahıya daxil edilib. Ən yaxşı təmsilçimiz "Qarabağ" 213 xalla 80-cidir. Qurban Qurbanovun yetirmələrinin mövqeyi dəyişməz qalıb.

Bir pillə geriləyən "Neftçi" 33 xalla qitədə 229-cudur. Daha çox - 9 addım aşağı yuvarlanan "Qəbələ" 5 xala 397-ci pillədə qərarlaşıb.

Qeyd edək ki, siyahıya 2397 xala malik "Real" başçılıq edir.

# Məsut Özil Ronaldonun yanına gedir

***Türkiyənin "Başakşehir" klubunun futbolçusu Məsut Özil superulduz Kriştiano Ronaldo ilə eyni çempionatda oynaya bilər.***



Almaniya millisinin sabiq futbolçusu karyerasını Səudiyyə Ərəbistanının "Əl Fayha" komandasında davam etdirməyə yaxındır.

Artıq ərəb təmsilçisinin "Başakşehir" rəsmiləri ilə görüşə başladığı bildirilir.

Qeyd edək ki, kürəyindəki ağrılar səbəbindən əməliyyat olunan 34 yaşlı futbolçu bu mövsüm cəmi 1 oyunda 10 dəqiqə meydanda olub.

# "Şamaxı"da növbəti ayrılıq

***"Şamaxı"da növbəti ayrılıq reallaşıb.***

"Unikal" klubun saytına istinadən xəbər verir ki, hücumçu Uğur Cahangirovla qarşılıqlı razılaşma əsasında müqaviləyə xitam verilib.

Qeyd edək ki, "Şamaxı" daha əvvəl Abdulla Rzayev, Bəhruz Teymurov və Adil Nağıyevin sözləşməsini ləğv edib.